# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

9 YANVAR 2020-ci il

№ 2 (4133)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# YAXIN REGİONDA ABŞ-İRAN GƏRGİNLİYİ İLƏ EYNİ VAXTDA ERMƏNİSTANIN ATƏŞKƏS POZUNTULARI - TƏCAVÜZKARIN YENİ PLANI...

səh. 8

Dağ bölgələrinin icra başçılarının yarıtmaz işi üzə çıxdı - Prezident dağ kəndlərindəki işıq sisteminə sərt irad bildirdi...

səh. 10

Qonşulara möhtac vəziyyətdən işıq satan Azərbaycana qədər - dövlət təhlükəsizliyimizin mühüm şərti...

səh. 3

20 Yanvar cinayətkarlarının tam siyahısı hələ tutulmayıb və mühakimə edilməyib...

səh. 5

İran-ABŞ raket müharibəsində Azərbaycanın ziyan görmə ehtimalı - Təsadüfi raketlərin zərərsizləşdirilməsi gücü...

səh. 8

Azərbaycanın neft qiymət strategiyasının dəqiqliyinə yeni sübut - neft 70 dolları aşaraq 150-yə doğru gedir...

səh. 7

Azərbaycan Rusiya - İran ticarətində tranzit olaraq Türkmənistanı və Qazaxıstanı da üstələdi...

səh. 11

Çini gözləyən iqtisadi fəlakət Azərbaycana təsirsiz ötüşəcək...

səh. 12

Bakının "əbədi" və əzəli problemlərindən biri - yolkənarı obyekt sahiblərinin "yolları zəbt etməsi"...

səh. 14



səh. 2

## Prezident Şəhərsalma və Arxitektura Komitəsinə görünməmiş səlahiyyət verdi - monitorinq qrupları yaradın, icra hakimiyyətlərinin xəbərsiz tikintilərinə yol verməyin... Bakının «tarixi mərkəzini» müəyyən edin...



İllər öncə «Barmek»in Azərbaycandan qovulmasına şübhəli baxanlar - Prezident ifşa olunmuş iqtisadi diversiyadan danışdı...

səh. 3

Azərbaycana investisiya yatırmaqda Rusiya və ABŞ dairələrindən eyni vaxtda böyük maraq...

səh. 6



Paşinyan siyasi narazı kənd icma rəhbərlərinə qarşı dünyada misilsiz repressiya üsulları tapıb...

səh. 9

səh. 4

20 Yanvar hadisələrinin 30-cu ildönümü tədbirlərinin dünyaya verəcəyi ən ümdə mesajlar...



səh. 10

Azərbaycan pasportları dünya üzrə 76 güclülər sırasında - gücümüz nədədir...



səh. 13

Bank kartlarından əməkdaşların iştirakı olmadan pul oğurlamaq mümkündürmü - "Unibank"ın timsalında nə baş verir...



səh. 14

Azərbaycanda 450 min fermer? - Az qala hər məntəqəyə 100 fermer düşür... Şübhələrin qaynaqları...



səh. 13

Xaricdə işləyən alimlərimizin yenidən AMEA sisteminə qaytarılması ideyası gündəmdə...



# Prezident Şəhərsalma və Arxitektura Komitəsinə görünməmiş səlahiyyət verdi - monitorinq qrupları yaradın, icra hakimiyyətlərinin xəbərsiz tikintilərinə yol verməyin... Bakının "tarixi mərkəzini" müəyyən edin...

**Prezident İlham Əliyev Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib.**

Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib:

- Bakı şəhəri bizim tarixi sərvətimizdir. Biz imkan verə bilmərik ki, hansısa bir təmənnaya, hansısa bir hərisliyə görə şəhərimizin keçmişini məhv edək, yaxud da şəhərimizin gələcəyini şübhə altına qoyaq. Qətiyyən bu, olmayacaqdır. Bütün biznes dairələri, inşaatla məşğul olan bütün şirkətlər bilsinlər ki, bundan sonra harada gəldi bina, ev tikmək praktikasına artıq son qoyulubdur. Bütün evlər, binalar şəhərsalma qaydalarına, Bakının memarlıq obrazına uyğun şəkildə tikilməlidir. Ona görə bu məsələyə çox böyük diqqət yetirmək lazımdır. Bakı şəhəri bundan sonra ancaq Baş Plan əsasında inkişaf etməlidir. Baş Plana uyğun olmayan heç bir bina Bakıda tikilməməlidir. Komitəyə yeni funksiyalar verilib və Komitənin razılığı olmadan heç bir bina tikilə bilməz. Rayon icra hakimiyyəti orqanları Komitədən razılıq almadan heç bir binanın tikilməsinə icazə verə bilməzlər. Siz bu funksiyalardan çox səmərəli şəkildə istifadə etməlisiniz. Sizin nəinki Bakıda və böyük şəhərlərdə, bütün ölkə üzrə monitorinq qruplarınız olmalıdır. Çünki bəzi hallarda torpaqlar zəbt olunur və tələm-tələsik binalar tikilir. Sonra da bu binalar, evlər hansısa qanunsuz yollarla sənədləşdirilir və biz artıq fakt qarşısında qalırıq. Ona görə monitorinq qrupları olmalıdır. Bütün yerli icra orqanlarına bir daha tapşırıq verirəm ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi olmadan qətiyyən bir dənə də bina tikilə bilməz. Biz buna son qoymalıyıq.

Əlbəttə, digər böyük şəhərlərimizdə də buna oxşar proseslər getməlidir, o cümlədən Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərinin və digər şəhərlərimizin Baş Planı tərtib edilməlidir. İndi bəzi yerlərdə yeni məktəb tikintisi üçün yer tapa bilmirlər. Ona görə mən tapşırıq vermişəm və aidiyyəti qurumlar bu işlərlə çox ciddi məşğuldurlar, xüsusilə Abşeron rayonunda - orada böyük problemlər var. Üç növbədə oxuyan uşaqlar var. İndi yeni məktəblər üçün yer axtarırıq və bu da çox ciddi bir prosesdir. Yeni artan əhali bütün infrastruktura artan yük deməkdir - həm nəqliyyata, həm sosial infrastruktura, həm də ictimai zonaların fəaliyyətinə. Ona görə siz işləri Baş Plan əsasında qurarkən mütləq perspektivi də nəzərdə saxlamalısınız, çünki əhalimiz bundan sonra da artacaq. Artımın da əsas səbəbi iqtisadi inkişafdır. İqtisadi inkişaf olmayan yerlərdə nadir hallarda əhali artır. Amma bizim iqtisadi inkişafımız bundan sonra da dayanıqlı olacaq. Ona görə bütün bu işlər bəri başdan hesablanmalıdır.



Bəzi tarixi şəhərlərdə müasir binalar o şəhərlərin simasını korlayır, tarixlə tamamilə uzlaşmır. Amma bizim müasir binalarımız elə gözəl memarlıq üslubunda və elə yerlərdə inşa edilib ki, tarixlə uzlaşır. Məsələn, qədim İçərişəhərdən çıxıb yolu keçərək müasir bulvara qədəm qoyan hər bir insan sanki keçmişdən bu günə səyahət edir. Yenə də deyirəm, bu, nadir bir mənzərədir. Şəhər inkişaf etməlidir, böyüməlidir, ancaq çox ciddi şəhərsalma prinsipləri əsasında. İndi tikintidə mövcud olan əmsallar gözlənilməlidir və bu əmsallar pozulmamalıdır.

Bir müddət bundan öncə ziyalılarla görüşdə Memarlar İttifaqının sədri təklif vermişdi ki, Bakının mərkəzi rayonu formalaşsın. Mən Bakı Şəhər İcra Hakimiyyətinə müvafiq göstərişlər vermişəm. Sizə də tapşırıram, Bakı Şəhər İcra Hakimiyyəti, Memarlar İttifaqı yığışın birlikdə təklifləri konkretləşdirin. Çünki bunun üstündən artıq uzun müddət keçib, ancaq hələ ki, mənə heç bir təklif verilməyib. Mən prinsip etibarilə bu təklifi dəstəkləyirəm. Çünki belə olan halda mərkəzi rayonda bu rayona uyğun xüsusi mühafizə tədbirləri görülə bilər və memarlıq abidələrimizə diqqət daha da yüksək ola bilər. O ki qaldı, yeni binaların tikintisinə, burada qaydalar daha da sərt olmalıdır.

## Ermənilərə əsir, girov və itkin düşmüş soydaşlarımızın dəqiq sayı açıqlandı...

**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş, həmçinin azad edilmiş şəxslərlə bağlı 01.01.2020-ci il tarixə olan statistik məlumatları açıqlayıb.**




Komissiyadan "Trend"ə verilən məlumata görə, hazırda Dövlət Komissiyasının qeydiyyatından keçən itkin düşmüş şəxslərin sayı 3889 nəfər təşkil edir. Onlardan 3622 nəfəri kişi, 267 nəfəri isə qadındır.

İtkin düşmüş şəxslərdən hərbçilərin sayı 3170 nəfər, mülki şəxslərin sayı isə 719 nəfər (uşaq - 71 nəfər, qadın - 267 nəfər, qoca - 326 nəfər) təşkil edib.

Əsir-girov götürülməsi barədə məlumatlar daxil olmuş şəxslərin sayı isə 871 nəfər olub. Onlardan 773 nəfəri kişi, 98 nəfəri isə qadındır. Həmin şəxslərin 604 nəfərini hərbçilər, 267 nəfərini mülki şəxslər (uşaq - 29 nəfər, qadın - 98 nəfər, qoca - 112 nəfər) təşkil edib.

Əsir və girovluqdan azad edilmiş şəxslərin sayı isə 1480 nəfər olub. Onlardan 1123 nəfəri kişi, 357 nəfəri isə qadın olub.

Əsir və girovluqdan azad edilmiş şəxslərin 378 nəfəri hərbçi, 1102 nəfəri mülki şəxs (uşaq - 224 nəfər, qadın - 357 nəfər, qoca - 225 nəfər) olub.

## Azərbaycan XİN sərhədlərimizi qoruyan əsgərin qətlini Ermənistanın özü üçün ifşa faktına çevirdi...

**Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) yanvarın 7-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətində açılan snayper atəşi nəticəsində sərhədçimiz Fərzalı Fərzəliyevin şəhid olması ilə bağlı məlumat yayıb.**



XİN-dən baki-xeber.com-a verilən məlumata görə, Ermənistan silahlı qüvvələrinin həm iki ölkənin dövlət sərhədində, həm də iki ölkə qoşunlarının təmas xəttində atəşkəsi davamlı şəkildə pozması və Azərbaycanlı hərbi və mülki şəxsləri hədəfə alması, bu ölkənin sözdə beynəlxalq hüquq dəyərlərinə hörmətlə yanaşıb, münaqişəni sülh yolu ilə həll etmək çağırışlarının saxta olduğunu və Ermənistanın işğalçı və təcavüzkar siyasətini pərdələmək məqsədi güddüyünü növbəti dəfə açıq şəkildə göstərir:

"Bu məqsədyönlü qəsdlə Ermənistan tərəfi bir daha açıq şəkildə təsdiq edir ki, məhz o, işğalçı ölkədir və Azərbaycanın işğal olunmuş ərazilərində yaratdığı oyuncaq rejim arxasında gizlənmək cəhdləri tamamilə əsassızdır.

Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini qoruyan Dövlət Sərhəd Xidmətinin əsgərinin qətlə yetirilməsi cinayətdir və bu qanlı cinayətin məsuliyyəti Ermənistan tərəfinin üzərindədir. Azərbaycan ərazilərini hərbi işğal edib, bu ərazilərdə etnik təmizləmə həyata keçirən, beynəlxalq hüququn fundamental prinsiplərini tapdalayan və mütəmadi əsasda atəşkəsi pozmaqla Azərbaycan hərbi və mülki şəxslərini hədəf alan Ermənistan tərəfi törətdiyi bütün cinayətlərin məsuliyyətini və bu qanuna zidd əməllərinin cavabsız qalmayacağını dərk etməlidir.

Allah şəhidimizə rəhmət eləsin".

**Prezident İlham Əliyev Vüqar Əhmədovu "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edərək, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edib. Ölkə başçısı Vüqar Əhmədovu bu vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib.**

Görüşdə çıxış edən Prezident İlham Əliyev vəzifəyə yeni təyin edilən məmura tapşırıqlar verib və ölkəmizin enerji təminatı ilə bağlı yaşadığı çətinliklərdən danışıb: "Bu çox məsuliyyətli vəzifədir və enerji təminatı hər bir ölkə üçün strateji sahədir. Son illər ərzində ölkəmizdə bu sahədə çox böyük işlər görülüb. Regionların sosial-iqtisadi inkişafına dair 2004-cü ildə qəbul edilmiş birinci Dövlət Proqramı çərçivəsində enerji güclərinin yaradılması nəzərdə tutulurdu. Artıq biz buna tam nail olduq. Bu gün bizim təqribən 1000 meqavatlıq əlavə enerji güclərimiz var ki, bu güclər həm ehtiyat təşkil edir, həm də ixrac potensialımızı genişləndirir. Keçən il ölkəmiz elektrik enerjisinin ixracından təqribən 60 milyon dollar civarında vəsait əldə edib".

Ölkə başçısı bir vaxtlar Bakının enerji təminatı ilə məşğul olan "Barmek" adlı əcnəbi şirkətin yarıtmaz fəaliyyətindən də ətraflı bəhs edib: "...İndi bəziləri unudub, vaxtilə elektrik enerjisinin qıtlığına görə gecə saatlarında televiziya kanalları söndürülürdü. Bakının enerji təminatı tamamilə bərbad vəziyyətə düşmüşdü. Bakının enerji təminatını inhisara götürmüş "Barmek" şirkəti enerji təsərrüfatını tamamilə sıradan çıxarmışdı. İndi bir çoxları o dövrü unudub. Mən bunu yaxşı xatırlayıram ki, məhz mənim göstərişimlə və sərəncamımla xarici iş adamlarının yarıtmaz fəaliyyəti geniş təhlil edildi. Bakının enerji təminatı yenə dövlətə qaytarıldı və "Azərişıq" yaradıldı. "Azərişıq" Səhmdar Cəmiyyətinin adını da mən vermişdim. O gündən bu günə qədər dövlət bu sahəyə böyük vəsait ayıraraq ciddi dönüş yarada bildi. Bu gün Azərbaycanda enerji dayanıqlılığı tam təmin edilir".

Göründüyü kimi, ölkə başçısı Azərbaycanda olduqca strateji sayılan bir sahəyə nəzarəti üzərinə götürən "Barmek" adlı xarici şirkətin yarıtmaz fəaliyyətindən ətraflı danışıb. Prezident səviyyəsində bildirilən fikirlərdən belə nəticəyə gəlmək olur ki, "Barmek", faktiki olaraq, iqtisadi diversiya ilə məşğul olub. Çox maraqlıdır ki, bir vaxtlar bəzi dairələr "Barmek"in ölkəmizdən getməsinə təəssüflə yanaşırdılar. Hətta qeyd edirdilər ki, bu, xarici sərmayənin ölkəmizdə azalması, əldən çıxması anlamına gəlir. Ancaq illər sonra ən yuxarı səviyyədə verilən bəyanatların ruhundan bəlli olur ki, sən demə, iqtisadi sferada, mühüm strateji sahələrə nəzarəti ələ almış əcnəbi şirkətlərdən bəziləri, sözün həqiqi mənasında, sabotaj və iqtisadi diversiya ilə məşğul olublar. Onların belə cəhdləri hansı maraqdan irəli gələ bilərdi?

# İllər öncə "Barmek"in Azərbaycandan qovulmasına şübhəli baxanlar - Prezident ifşa olunmuş iqtisadi diversiyadan danışdı...

## Aydın Hüseynov: "Şirkətin rəhbəri olan Hüseyn Arabulun səriştəsizliyi, şəxsi istəyinə uyğun olaraq davranışlar göstərməsi belə vəziyyəti yaratdı"



Millət vəkili Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, "Barmek"lə bağlı yaşananları bütün əcnəbi şirkətlərə aid etmək olmaz: "Bilirsiniz ki, Azərbaycanda çoxlu sayda əcnəbi şirkət fəaliyyət göstərir. Onlar ölkəmizin iqtisadiyyatına böyük fayda verirlər. Həmçinin, Azərbaycana məxsus olan çoxlu sayda şirkət xaricə qoyulan sərmayə layihələrində iştirak edir. Belə hal məqbuldur. Hesab edirəm ki, "Barmek"lə bağlı yaşananlarda həmin şirkətin təmsil olunduğu ölkə ilə heç bir əlaqəsi yoxdur. Çünki ölkəmizin bütün sahələrində fəaliyyət göstərən türk şirkətləri nümunəvi davranışları ilə yadda qalıblar. "Barmek"lə bağlı yaşananlar onun rəhbərindən qaynaqlanıb. Yeni şirkətin rəhbəri olan Hüseyn Arabulun səriştəsizliyi, şəxsi istəyinə uyğun olaraq davranışlar göstərməsi belə vəziyyəti yaratdı. Məhz buna görə də, o, cinayət məsuliyyətinə cəlb edildi. Hesab edirəm ki, ən başlıca səbəb həmin şirkətin rəhbərinin məsuliyyətli adam olmamasıdır. Azərbaycan qanunvericiliyi çox mükəmməldir. Yeni hər hansı bir yerli və əcnəbi şirkət ona uyğun şəkildə fəaliyyət göstərsə, onun heç bir problemi olmaz. Bu qanunları pozanlar isə hüququn aliliyi qarşısında cavab verməli olurlar. Təəssüf ki, "Barmek" şirkətinin adı ölkəmizə qoyulan investisiya sahəsində qara zolaqla keçir. Ümid edirəm ki, əcnəbi şirkətlərin timsalında bir daha belə səhlənkarlığa yol verilməyəcək".

***Məhəmmədəli QƏRİBLİ***



# Qonşulara möhtac vəziyyətdən işıq satan Azərbaycana qədər - dövlət təhlükəsizliyimizin mühüm şərti...

**"Biz vaxtilə idxaldan asılı idik. İndi isə biz özümüzü elektrik enerjisi ilə təmin edirik və ixrac da edirik". Bunu Prezident İlham Əliyev Vüqar Əhmədovu "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.**

## *"Azərbaycanın üstünlüyü həm də onunla bağlıdır ki, enerji istehsalı üçün..."*

Ölkə başçısının sözlərinə görə, son illər ərzində Azərbaycanda bu sahədə çox böyük işlər görülüb: "Regionların sosial-iqtisadi inkişafına dair 2004-cü ildə qəbul edilmiş birinci Dövlət Proqramı çərçivəsində enerji güclərinin yaradılması nəzərdə tutulurdu. Artıq biz buna tam nail olduq. Bu gün bizim təqribən 1000 meqavatlıq əlavə enerji güclərimiz var ki, bu güclər həm ehtiyat təşkil edir, həm də ixrac potensialımızı genişləndirir. Keçən il ölkəmiz elektrik enerjisinin ixracından təqribən 60 milyon dollar civarında vəsait əldə edib.

Ölkəmizdə əhalinin və sənaye potensialının artımı diktə edir ki, bu sahə daim diqqət mərkəzində olsun. Odur ki, mən Prezident kimi fəaliyyətə başlayanda infrastruktur layihələri arasında, ilk növbədə, məhz bu sahəyə böyük diqqət göstərildi. Mənim göstərişimlə və nəzarətim altında bölgələrdə bir neçə elektrik stansiyası tikilib".

Prezident onu da qeyd edib ki, ixrac o təqdirdə edilə bilər ki, daxili tələbat tam ödənilsin. Biz indi buna nail ola bilmişik.

Görünən odur ki, aparılan ardıcıl işlər sayəsində Azərbaycan elektrik enerjisi idxalçısından bu məhsulu ixrac edən ölkəyə çevrilib. Ölkəmizin enerji alıcısından onu ixrac edən ölkəyə çevrilməsi Azərbaycanın enerji təhlükəsizliyi üçün nə deməkdir?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bu, ölkənin enerji təhlükəsizliyi baxımından çox mühüm göstəricidir:

## Rəsul Cahangirli: "Bu, ölkənin enerji təhlükəsizliyi baxımından çox mühüm göstəricidir"

"Məsələ ondadır ki, enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir. Bu baxımdan, Azərbaycanın bu sahədə əldə etdiyi uğurlar çox əhəmiyyətə malikdir. Hətta yüksək inkişaf etmiş ölkələrin də enerji təhlükəsizliyi sahəsində ciddi problemləri mövcuddur. Elə ölkələr var ki, onların, ümumiyyətlə, karbohidrogen resursları yoxdur. Elə ölkələr də var ki, malik olduqları köhnə yataqlar tükənmək üzrədir. Başqa bir məlumata əsasən, dünyada sənaye məhsulları istehsalında 80 faizlik paya malik olan böyük dövlətlər təxminən 20 faizə bərabər enerji ehtiyatlarına malikdirlər. Onu da nəzərə almaq lazımdır ki, dünyada elektrik enerjisinə tələbat hər il artır.

Xüsusən sənayenin inkişaf etdiyi ölkələrdə tələbat daha böyükdür. Azərbaycanın üstünlüyü həm də onunla bağlıdır ki, enerji istehsalı üçün lazım olan xammalı idxal hesabına deyil, daxili imkanlar hesabına təmin edir. Bu da əldə edilən elektrik enerjisinin maya dəyərinin ucuz başa gəlməsinə səbəb olur. Bütün bunlar Azərbaycanın enerji təhlükəsizliyinin daha da etibarlı təmin edilməsində böyük rol oynayır".

***Vidadi ORDAHALLI***

**XX əsrdə xalqımızın başına gətirilən müsibətlərdən biri kimi tariximizə daxil olan 20 Yanvar faciəsinin törədilməsindən 30 il ötür. Bildiyimiz kimi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyevin sərəncamı ilə "20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planı" təsdiq edilib.**

# 20 Yanvar hadisələrinin 30-cu ildönümü tədbirlərinin dünyaya verəcəyi ən ümdə mesajlar...

***Vaqif Abışov:** "...amma bu qətliama dünya birliyi göz yumub, hüquqi-siyasi qiymət verməyib, cinayətkarlar məsuliyyətdən kənarda qalıblar"*



*"20 Yanvar faciəsi ilə bağlı beynəlxalq səviyyəli tədbirlərdə dövlətimiz xalqımızın faciələrini dünya birliyinə bir daha çatdırmalıdır"*

Sənədə əsasən, respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayişi nəzərdə tutulur. 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması planlaşdırılır.

Həmçinin, dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması, nəşri və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Məlum olduğu kimi, artıq dünyanın bir sıra ölkələrində 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı silsilə tədbirlər keçirilir, bu tədbirlərdə Azərbaycan xalqının azadlıq mübarizəsindən, suverenlik uğrunda verdiyi qurbanlar haqqında danışılır.

20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı keçirilən tədbirlər vasitəsilə Azərbaycan dünyaya, beynəlxalq ictimaiyyətə hansı vacib mesajları verir və verməlidir?

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov bizimlə söhbətində bildirdi ki, Azərbaycan bu tədbirlər vasitəsilə dünyaya çox ümdə mesajlar ötürəcək. O hesab edir ki, 30 il bundan əvvəl Bakıda Azərbaycan xalqına qarşı baş verən faciədən, törədilən qətliamdan dünyanın çox hissəsi xəbərsizdir. Onun sözlərinə görə, son 30 ildə Azərbaycan xalqı davamlı olaraq bir neçə faciə yaşamağa məhkum olub. Alimin qeyd etdiyinə görə, 20 Yanvar faciəsinin 30-cu ildönümünün ölkədə və ölkə xaricində keçirilməsi Azərbaycanın səsinin bir daha eşidilməsinə səbəb olacaq. "20 Yanvar hadisələrinə şahidlik etmiş bir vətəndaş olaraq bildirməliyəm ki, dövlətin 20 Yanvar faciəsinin dünyada tanıdılması istiqamətində gördüyü işlər yüksək dəyərləndirilməlidir. Azərbaycanın beynəlxalq ictimaiyyətə deyəcək çox sözü, veriləcək çox mesajı var. 1990-cı ildə Mixail Qorbaçov başda olmaqla keçmiş SSRİ rəhbərliyinin əmrilə Bakıda törədilən qırğın barədə dünya daha geniş şəkildə məlumatlandırılmalıdır. Azərbaycan 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı keçirdiyi bütün tədbirlərdə dünya ictimaiyyətinə o mesajı verir ki, 30 il bundan əvvəl Bakıda dinc azərbaycanlılar qanına qəltan edilib, amma bu qətliama dünya birliyi göz yumub, hüquqi-siyasi qiymət verməyib, cinayətkarlar məsuliyyətdən kənarda qalıblar. 20 Yanvar hadisəsi Azərbaycan tarixinin qanla yazılan şərəfli səhifəsidir. Bu səhifəni dünya oxumağı bacarmalıdır. Bu gün Azərbaycan şəhidlərin qanı hesabına öz dövlət müstəqilliyini qurdu, qorudu. Azərbaycan qüdrətli bir dövlət kimi dünyada özü sözünü deyir. Azərbaycan sülh istəyir, torpaqlarının işğaldan azad olunmasını tələb edir, amma dünya birliyi buna cəhd göstərmir. Ölkəmiz bu tədbirləri keçirməklə həm də dünyaya çatdırmaq istəyir ki, keçən illərdə törədilən kütləvi qırğınlara göz yumulması nəticəsində bu gün dünyanın müxtəlif yerlərində insan qanı axıdılır. Əslində, 20 Yanvar kimi faciələrin törədilməsi dünyaya dərs olmalıdır".

V.Abışov qeyd etdi ki, müstəqil Azərbaycan dövlətinin apardığı daxili və xarici siyasət, inkişafı, milli ideologiyası, tarixi, mədəniyyəti humanizmə, insani prinsiplərə söykənir. "Azərbaycan 30 il bundan əvvəl yaşadığı faciənin tarixini yada salmaqla, qeyd etməklə dünyaya çatdırır ki, əliyalın, dinc insanlar böyük bir imperiyanın silahları, tankları altında əziliblər. 20 Yanvar faciəsini törədənlərin də cəzasızlığı, hələ də həbs edilməmələri dünya birliyini narahat etməlidir. Böyük tarixə, mədəniyyətə malik olan Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra dünya tarixinə, mədəniyyətinə, iqtisadiyyatına, idmanına, siyasətinə və s. töhfələr verib və verməlidir. 20 Yanvar faciəsi ilə bağlı beynəlxalq səviyyəli tədbirlərdə dövlətimiz xalqımızın faciələrini dünya birliyinə bir daha çatdırmalıdır. Dünya gənclərinin 20 Yanvar faciəsindən xəbəri olmalıdır ki, onlar gələcəkdə bu məsələ ilə bağlı daha obyektiv fikirlər yürüdə bilsinlər, dünya tarixində bu faciəyə qiymət versinlər" - deyə müsahibimiz vurğuladı.

***İradə SARIYEVA***

# 20 Yanvar cinayətkarlarının tam siyahısı hələ tutulmayıb və mühakimə edilməyib...

**20 Yanvar faciəsinin otuzuncu ildönümü yaxınlaşır. Bu illər ərzində Azərbaycan dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək istiqamətində xeyli iş görüb. Faciənin üstündən xeyli zaman keçməsinə baxmayaraq, hər il 20 Yanvar günü Azərbaycan xalqı faciə qurbanlarının məzarı başına gedib, onların xatirəsini hörmətlə anır.**



Faciənin törədilməsində təqsiri olanların tam siyahısı hələ də tutulmayıb və məsuliyyətə cəlb edilənlər mühakimə edilməyiblər. Qeyd edək ki, 20 Yanvar faciəsinin törədilməsilə bağlı Azərbaycanda cinayət işi açılıb və istintaq aparılıb. İstintaq materiallarında qeyd edilir ki, SSRİ-nin keçmiş prezidenti Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu və Azərbaycan Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq Bakıda fövqəladə vəziyyətin tətbiq edilməsi və ordunun Bakıya yeridilməsi ilə bağlı qanunsuz fərman verib. Bu fərman əsasında sovet qoşunları 1990-cı il yanvarın 19-da saat 00:00-dan başlayaraq Bakının keçmiş "Nasosnıy" qəsəbəsi, keçmiş "Əzizbəyov" metrostansiyası və Sumqayıt şəhəri istiqamətindən şəhərə daxil olub və dinc əhalini qırğına məruz qoyublar.

Qırğın nəticəsində 132 nəfər qətlə yetirilib, 612 nəfər yaralanıb, 814 nəfər qanunsuz həbs olunub. Hadisə ilə bağlı aparılan istintaq zamanı müəyyən edilib ki, binalara və digər dövlət əmlakına ciddi ziyan dəyib. Bakıda yetərincə hərbçi olduğu halda, şəhərə 66 min nəfərlik əlavə qoşun kontingenti yeridilib. Bunlar SSRİ Müdafiə Nazirliyinin, Daxili Qoşunların hərbçiləri və kursantları olub. Əməliyyata Krasnodar vilayətindən müddətdən artıq hərbi qulluq keçən hərbçilər də cəlb edilib ki, onların arasında çoxlu erməni də olub. Həmin materiallarda, həmçinin, qeyd edilir ki, Azərbaycan Dövlət Televiziyasının enerji blokunun partladılması Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin o vaxtkı rəhbəri Vaqif Hüseynov və Moskvadan gələn nümayəndələrin təşkilatçılığı ilə baş tutub.

İlkin olaraq bu hadisə ilə bağlı qaldırılan cinayət işini Rusiya Prokurorluğu aparıb. Azərbaycan Prokurorluğu cinayət işinə çox gec - 14 fevral 1992-ci ildə başlayıb. İki ildən sonra istintaq aparılması çox çətin olub, çünki həmin müddət ərzində müəyyən sübutlar itirilib. Bəzi istintaq hərəkətləri həm burada, həm də Moskvada aparılıb.

1990-cı ilin yanvarında Bakıya ezam olunan SSRİ Mərkəzi Komitəsinin rəhbər işçiləri dindirilib, Ancaq Qorbaçovu və Bakatini dindirmək mümkün olmayıb. Girenko, Babkov, Mixaylov, Yazovun dindirildiyi, Qorbaçovun isə istintaqdan yayındığı deyilir. 1992-ci ildə 68 cildlik əsas iş Azərbaycana verilməyib. İndiyə qədər Azərbaycan Prokurorluğu 68 cildlik həmin işi tələb edir, amma onlar bizə çatdırılmayıb. Bu da istintaqın tam obyektiv aparılması üçün maneə törədən faktordur. Bu müddət ərzində həm Azərbaycan, həm də keçmiş SSRİ rəhbərliyindən cinayətin törədilməsində təqsirkar olanların bəziləri dünyasını dəyişib.

**Ancaq təəssüflər olsun ki, onların əməllərinə tam hüquqi qiymət verilməyib. Bu qanlı hadisəyə zaman öz obyektiv qiymətini verib, ümidvarıq ki, təqsirkarlar barəsində gec də olsa, mütləq mənada, məhkəmənin ittiham hökmü çıxarılacaq və həmin adamlar qanun qarşısında layiq olduqları cəzalarını alacaqlar.**

*Məhəmmədəli QƏRİBLİ*

# İranın hücumlarının ardından ABŞ sui-qəsdçi 75-ci Ranger alayını İraqa göndərdi

**İran Islam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) yanvarın 8-də gecə saatlarında ABŞ-ın İraqdakı hərbi bazalarına raket zərbələri nəticəsində 80 ABŞ əsgəri ölüb. Baki-xeber.com xəbər verir ki, bu barədə İran dövlət televiziyası məlumat yayıb.**

SEPAH Ayn əl-Asad aviabazasına, Anbar və Ərbil şəhərlərindəki ABŞ qoşunlarının da olduğu aviabazalara ballistik raketlərlə zərbələr endirib.

İran dövlət televiziyasına görə, atılan 15 raketin hamısı ABŞ-ın hədəflərinə dəyib, bazalardakı helikopterlər və hərbi texnikaya ciddi ziyan dəyib. Televiziya ABŞ-dan gələ biləcək mümkün cavab hücumlarına qarşı İranın müəyyənləşdirdiyi digər 100 hədəfin də vurulacağını bildirib. Dövlət televiziyası ABŞ bazalarının İraq sərhədi yaxınlığındakı Kermanşah şəhərindən atılan bərk yanacaqlı "Fatih" raketləri ilə vurulduğunu deyib.

ABŞ-ın bir hərbi rəsmisi isə CNN İnternational-a bildirib ki, hərbçilərin hücumlardan əvvəl xəbərdar edilmələri üçün kifayət qədər vaxt olub. Vaşinqton heç bir itki vermədiyini, raketlərin bos ərazilərə düşdüyünü bildirir. Hətta bəzi mənbələr İraqın Ayn əl-Əsəd aviabazasında ümumiyyətlə amerikalıların olmadığını iddia edib.

ABŞ Prezidenti Donald Tramp isə ilkin bəyanatında bildirib ki, hazırda tələfat və zərərin qiymətləndirilməsi aparılır: "İran tərəfi İraqda yerləşən iki hərbi bazaya raketlərlə atəş açıb. Hazırda tələfat və zərərin qiymətləndirilməsi aparılır. Hələki hər şey yaxşıdır. Biz dünyanın hər yerində ən güclü və yaxşı təchiz olunmuş orduya malikik".

İraqdakı Haşdi Şabi yaraqlıları İranın raket hücumlarından sonra ABŞ hədəflərinə hücum etməyin vaxtı gəldiyini açıqlayıb. Haşdi Şabi ABŞ bazalarına edilən hücumların İranın qisasından daha kiçik olmayacağını bildirib.

İran isə hücumların başlanğıc olduğunu, ABŞ bölgəni tərk edənədək davam edəcəyini bildirib. İran ABŞ hərbi bazalarına ev sahibliyi edən bölgə ölkələrinə də raket zərbələri endirəbiləcəyilə bağlı xəbərdarlıq edib.




Küveyt müdafiə naziri isə Arifjan bazasının komandirindən bütün ABŞ qüvvələrinin 3 gün içində geri çəkiləcəyi ilə bağlı bir məlumat aldıqlarını açıqlayıb: "Amerika komandirinin gözlənilməz məktubu ilə bağlı ABŞ Müdafiə Nazirliyindən daha dəqiq məlumat almağa çalışırıq". Bunun ardından daha bir açıqlama yayan Küveyt rəhbərliyinə ABŞ qoşunlarının çəkiləcəyi xəbərlərinin doğru olmadığı, Küveyt xəbər agentliyinin saytına haker hücumu olduğunu deyib.

İraq rəhbərliyi baş nazirin hücumlarla bağlı əvvəlcədən İrandan səsli mesaj aldığını, ABŞ əsgərlərinin olduğu ərazilərin hədəf alınacağının bildirildiyini deyib. Ancaq Bağdad konkret hədəflərin açıqlanmadığını bildirib.

Suriya rejimi də İranı dəstəklədiyini bəyan edib.

Dünya ABŞ-ın İraqdakı qüvvələrini geri çəkməsini gözlədiyi halda, ABŞ 3.632 nəfərdən ibarət sui-qəsd timi kimi tanınan 75-ci Ranger alayını bölgəyə göndərdiyini açıqlayıb. Pentaqon rəsmilərindən biri Amerika mətbuatına ABŞ-ın ən böyük sui-qəsd timi olan 75-ci Ranger alayının İraqa göndərildiyini deyib.

1984-cü ildən fəaliyyət göstərən 75-ci Ranger alayı 3623 nəfərdən ibarət yüngül piyada xüsusi əməliyyat bölməsi kimi tanınır. Rangerlərin bölgəyə göndərilməsi ABŞ-ın açıq hədəfləri məhv etmək strategiyası izləyəcəyini açıq şəkildə bildirməsi kimi şərh olunur.

# Azərbaycana investisiya yatırmaqda Rusiya və ABŞ dairələrindən eyni vaxtda böyük maraq...

**Ötən il ərzində həyata keçirilən islahatlar Azərbaycana beynəlxalq miqyasda marağı artıran növbəti mühüm faktorlardan biri sayılır. Məlumdur ki, məhz bu islahatlar nəticəsində ölkədə vətəndaşların rifah halının yüksəlməsi, sosial təminat, əməkhaqları və pensiyaların artımı sahəsində ciddi yeniliklər baş verib.**

Bir sıra irimiqyaslı strateji regional layihələr reallaşdırılıb.

Eyni zamanda, ötən il ərzində biznes mühitinin əlverişliliyinin artırılması ilə rəqabətədavamlı mühit formalaşdırılıb. İslahatlar hüquqi şəxslərin dövlət qeydiyyatı, tikinti, elektrik, əmlakın qeydiyyatı, vergi, xarici ticarət, məhkəmə, dövlət satınalmaları kimi bir çox ayrı-ayrı sahələrdə aparılıb. Ümumilikdə, biznes mühitinin əlverişliliyinin artırılması istiqamətində həyata keçirilən islahat tədbirləri Azərbaycana beynəlxalq marağı daha da artırır. Bunu ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin Azərbaycan üzrə missiyasının direktoru Caydev Sinqx də xüsusi olaraq vurğulayır. O, Azərbaycanda həyata keçirilən struktur və iqtisadi islahatları yüksək dəyərləndirdiyini bildirir:"Burada islahatlarla bağlı xeyli canlanma görürəm. Odur ki, islahatları iqtisadiyyatı və məhkəmə sistemini təkmilləşdirmək vasitəsi olaraq görən hökumətin bu yanaşmasını yüksək dəyərləndirirəm. Bunlar tərəqqi yolunda müsbət əlamətdir. Azərbaycan sərmayələr üçün daha əlverişli hala gəlir. Bu da bizim üçün çox mühüm məsələdir. ABŞ şirkətlərinin də Azərbaycana sərmayə nöqteyi-nəzərindən baxmalarını istərdik. Bununla yanaşı, kadr dəyişiklikləri də müsbət məqamdır. Ölkə prezidenti və komandası daha gənc, daha qabaqcıl dünyagörüşlü şəxsləri seçir. Azərbaycanda məhz dəyişikliklərin baş verdiyi belə bir dövrdə olmaq çox maraqlıdır". O, bu şəraitdə Azərbaycana daha çox sərmayə axınını, bunun qeyr-neft sektoruna mühüm təkan verəcəyini də istisna etmir. Eyni yanaşmanı Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov da sərgiləyir. Qeyd edir ki, baş verənlər, həyata keçirilən islahatlar Azərbaycanın iqtisadi mövqelərini daha güclü hala gətirir və bu, Rusiyanın da ölkəmizə diqqətinin artmasına rəvac verir.

Səfir bildirir ki, Rusiya Azərbaycanla ticarət həcmini artırmaq və iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına dəstək vermək niyyətindədir: "Biz ticarət dövriyyəsini artırmaq istəyirik. Bu səbəbdən müxtəlif inzibati, infrastruktur maneələrini aradan qaldırmağa çalışırıq". Onun sözlərinə görə, 2018-ci ildə Azərbaycan və Rusiya arasında olan ticarət dövriyyəsi 2,5 milyard dollar təşkil edirdisə, 2019-cu ilin nəticələrinə əsasən bu rəqəmin 3 milyarda qədər yüksəldilməsi baş tutub:"Əlbəttə, bu son hədd hansısa şişirdilmiş rəqəm deyil, artıq nəticələr var və qarşıda görüləcək iş çoxdur. İkincisi, iqtisadi münasibətlərimizdə Azərbaycanın qarşıya qoyduğu neft asılılığından uzaqlaşmaq və iqtisadiyyatın qeyri-neft sektorunu inkişaf etdirmək məqsədini tam nəzərə alırıq.

Bacardığımız qədər bu hədəfə çatmaqda yardımçı olmağa çalışırıq". Boçarnikovun vurğuladığı kimi, bununla əlaqədar, qeyri-neft sektorunda konkret layihələrin həyata keçirilməsi istiqamətində məqsədlər qoyulub: "Konkret layihələr haqqında danışsaq, məsələn, 2020-ci ildə Hacıqabulda avtomobil zavodunun istifadəyə veriləcəyinə ümid edirik. Bu layihə "Azərmaş" və "Qruppa QAZ" şirkətlərinin birgə səyləri nəticəsində həyata keçirilir. Söhbət "QAZel"lərdən gedir". Səfir tezliklə Pirallahıda dərman vasitələri istehsal edəcək müəssisənin tam gücü ilə fəaliyyətə başlayacağına ümidvar olduğunu bildirib:"Eyni zamanda inanırıq ki, 2020-ci ildə vertolyot texniki servis xidməti mərkəzi fəaliyyətə başlayacaq. Bu bizim həyata keçirməli olduğumuz konkret layihələrdir.



Bundan əlavə, biz çoxdandır ki, Gəncə Avtomobil Zavodu ilə "KamAZ" və "UAZ" zavodları arasında əməkdaşlıq təşkil edirik, bu avtomobillərin yığılması həyata keçirilir". Boçarnikov bildirib ki, iki ölkə arasında olan iqtisadi əməkdaşlıq bir çox sahələri əhatə edir: **"Kənd təsərrüfatı və neft-qaz maşınqayırması, gəmiqayırma, metallurgiya kimi bir sıra sahələrdə müəssisələrin yaradılması, texnologiya və təcrübənin ötürülməsi barədə danışa bilərik". Boçarnikov sadaladığı "dəqiq istiqamətlər"in Azərbaycan-Rusiya hökumətlərarası komissiyasının protokollarında öz əksini tapdığını vurğulayıb. Səfir Azərbaycanda islahatların Azərbaycanın beynəxalq reytinqinə də müsbət təsir göstərdiyini vurğulayır. Belə vəziyyətdə Azərbaycana xarici sərmayə axınının əhəmiyyətli dərəcədə artması da tamam gözlənilən hal sayılır.**

*Tahir TAĞIYEV*

**Ötən ilin iqtisadi yekunlarının təhlili neft qiymətləri ilə bağlı Azərbaycanın qiymət strategiyasının özünü tam şəkildə doğrultduğunu təsdiqlədi. Hətta ölkə neft satışından nəzərdə tutulduğundan daha çox həcmdə gəlir əldə etdi.**

dinamika İran generalının öldürülməsinin nəticəsidir ki, bu da geosiyasi gərginliyə və digər nəticələrə gətirib çıxara bilər və bu, açıq-aydın görünür.

# Azərbaycanın neft qiymət strategiyasının dəqiqliyinə yeni sübut - neft 70 dolları aşaraq 150-yə doğru gedir...




Xatırladaq ki, ötən il neftin büdcə qiyməti 60 dollardan müəyyən olunmuşdu. Amma araşdırmalar göstərir ki, Azərbaycanın əsas xam neft brendi olan "Azeri Light" markalı neftin bir barreli 2019-cu ildə çatdırılma nöqtəsində ortalama 66,79 dollara satılıb.

Düzdür, ötən il dünyada neftin orta qiyməti əvvəlki illə müqayisədə aşağı olduğuna görə "Azeri Light" nefti də, həmçinin, keçən il 2018-cu illə müqayisədə təxminən 9 faiz aşağı qiymətə alınıb. Belə ki, 2018-ci il üzrə "Azeri Light"ın orta satış qiyməti 73,3 dollar təşkil edib. Amma yenə ötən il Azərbaycan neft satışından böyük gəlir əldə edib. Cari ildə isə neftin büdcə qiyməti 55 dollar müəyyən edilib. Lakin hazırda "Azeri Light" neftinin bir barrelinin qiyməti 70 dollardan yuxarıdır. Neftin qiyməti dünya bazarlarının tələb-təklif dinamikasından və alıcıların gözləntilərindən asılıdır. Digər neft növlərinin qiyməti dəyişəndə "Azer Light" neftinin qiyməti də dəyişir. "Azeri Light" yüngül və kükürd tutumu aşağı olan neft növü olduğuna görə, adətən "Brent" markalı neftə nisbətən premiya ilə satılır və hazırda "Brent"dən təxminən 2,25 dollar bahadır. Baş verən hadisələr fonunda neft qiymətinin hələ yüksək olaraq qalması gözlənilir. Qeyd edək ki, İran Silahlı Qüvvələrinin elit bölməsi olan İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) "Qüds" qanadının komandiri general Qasım Süleymaninin öldürülməsindən sonra ABŞ-İran arasında baş verə biləcək müharibə ilə bağlı narahatlıqlar fonunda bu həftə neft qiymətləri yeddi ayda ilk dəfə 70 dolları keçib. "İndependent" qəzeti yazır ki, iki ölkə arasındakı gərginliyin müharibəyə çevrilməsi halında neftin qiyməti 150 dolları keçəcək. Beynəlxalq ekspertlərə görə, Tehranın dünya neft daşımalarının beşdə biri düşən Hörmüz boğazını bağlaması, regiondakı bir sıra vacib qurğular və nəqliyyat xətlərinin hədəfə çevrilməsi dünyanın neft tədarükünə çox ciddi təsir göstərəcək.

Neft bazarının analitiki Jozef Roçester bu xüsusda bildirir:"Neft bazarındakı Əsas sual nəticələrin nə olacağıdır". Ekspertlərə görə, ABŞ-la Çinin ticarət danışıqları, OPEC-in neft hasilatını daha da azaltması, sentyabrda Səudiyyə Ərəbistanının neft obyektlərinə təşkil edilən hücumlar da qiymət artımına təsir edir. İqtisadçı ekspert Natiq Cəfərli də deyir ki, belə hadisələrə birjalar hər zaman həssas reaksiya göstərir:"Birjalar və bazarlar hazırda gözlənti halındadırlar. Dövlətlər müxtəlif silahlı qruplardan istifadə etməklə bir-birinin maraqlarına zərbə vura bilərlər. Bunlardan biri də Yəmən ərazisindən Səudiyyə Ərəbistanının neft yataqlarına hücum ehtimalının olmasıdır. Əslində neftin qiymətində iqtisadi parametrlər təsiredici rol oynamalıdır. Hazırda isə iqtisadi proseslər arxa plana keçib və siyasi hadisələr, hərbi toqquşmalar qiymətlərə təsir edən əsas amillərdir". Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol bildirib ki, neft tədarükü tələbatı qarşılamaya və buna görə də "qara qızıl"ın qiyməti daha çox arta bilər:"Yaxın Şərq, İran, Səudiyyə Ərəbistanı və Liviyadakı proseslər qiyməti kəskin artıra bilər. Qeyri-OPEC ölkələrinin istehsal paylarının azalması nəticəsində OPEC-in dünyaya neftin qiymətini diqtə etmək qabiliyyəti əhəmiyyətli dərəcədə çoxalıb. Dünya iqtisadiyyatı çox kövrək bir dönəmdən keçir. Lakin buna baxmayaraq, neftin qiymətinin artması baş verir". O, neftin qiymətinin məqbul səviyyədə qalacağını proqnozlaşdırdığını, 2020-ci ildə isə bərpaolunan enerjinin daha çox gündəmə gələcəyini vurğulayıb. Lakin indiki şəraitdə qiymət artımı da qaçılmazdır.

Hesab olunur ki, yüksək qiymət şəraitində Azərbaycan neft satışından daha çox gəlir əldə edəcək. Dünya Bankı isə bildirir ki, 2020-ci ildə qlobal mühitdəki qeyri-müəyyənliklər şəraitində neftin dünya bazarında qiymət dinamikası Azərbaycanın xarici balansına təsir göstərən əsas amillərdən olacaq. Bununla belə, bəzi neft ixracatçılarına qarşı sanksiyalar və "OPEC plus" tərəfindən hasilatın tənzimlənməsi siyasəti neft qiymətlərinə bu ildə də artırıcı təsir edəcək.

**Baza ssenari üzrə proqnozlar Azərbaycanda xarici və daxili balans üzrə əldə edilmiş müsbət meyllərin qorunacağını göstərir. 2020-ci ildə qlobal mühitdəki qeyri-müəyyənliklər şəraitində neftin dünya bazarında qiymətinin dinamikası, ticarət tərəfdaşlarında gedən proseslər, habelə idxaldan asılılığın azaldılması və ixrac potensialının artması Azərbaycanın xarici balansına təsir göstərən əsas amillər olacaq. Əvvəlki illərdə olduğu kimi, bu ildə də cari əməliyyatlar balansının profisiti əsasən xarici ticarət balansı hesabına formalaşacaq. Qeyri-neft ticarət balansı ilə yanaşı, xidmət və ilkin gəlirlər balansında da müsbət meyllərin qalacağı proqnozlaşdırılır.**

***Tahir TAĞIYEV***

# Yaxın regionda ABŞ-İran gərginliyi ilə eyni vaxtda Ermənistanın atəşkəs pozuntuları - təcavüzkarın yeni planı...

***Hatəm Cabbarlı:** "Bölgədəki təhlükəsizliyin, daha doğrusu, status-kvonun dəyişməz qalmasına bu cür təxribatlarla..."*

**Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədindəki təmas xəttində atəşkəs rejimini kobud surətdə pozmaqla növbəti dəfə təxribat törədiblər.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən verilən məlumata görə, 2020-ci il yanvarın 7-si saat 14:56 radələrində Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətində düşmən tərəfindən açılan snayper atəşindən sərhədçi əsgər Fərzəliyev Fərzəli Əlimürsəl oğlu şəhid olub.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev və digər rəhbər vəzifəli zabitlər hadisə yerində olublar. Hərbi Prokurorluğun zəruri tədbirlər həyata keçirdiyi bildirilir.

Ermənistanın məhz indiki məqamda atəşkəsi kobud şəkildə pozub, snayperlə əsgərimizi qətlə yetirməsi təsadüfi sayıla bilməz. Hazırda regionda çox qarışıq proseslər yaşanır. Həm Ermənistanın, həm də ölkəmizin birbaşa sərhəd qonşusu olan İran dövləti dünyanın ən nəhəng ölkəsi ABŞ-la müharibə vəziyyətindədir. Tərəflər bir-birinə raket zərbələri endirirlər. Belə olan şəraitdə Ermənistanın bu şəkildə atəşkəsi pozub, təxribat törətməsi təsadüf sayıla bilərmi?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, baş verən proseslərə kompleks yanaşmaq lazımdır: "Yaxın Şərqdə baş verən ABŞ-İran qarşıdurması, sadəcə, həmin regionun deyil, ümumən geniş bir ərazinin təhlükəsizliyi üçün təhlükə törədə bilər. Bura Cənubi Qafqaz da aiddir. Bu baxımdan, İranın ABŞ-a verəcəyi cavabın necə olacağı xüsusi əhəmiyyət daşıyır. Ermənistan, hər zaman olduğu kimi, yenə də fürsətcil davranır və yaranmış gərginlikdən öz xeyri üçün istifadə etməyə çalışır. Bu xüsusda Ermənistan-Azərbaycan sərhədində atəşkəsi pozmaqda davam edir. Qazaxda ermənilərin snayper gülləsi ilə bir hərbçimiz şəhid edilib. Ermənistanın bölgədə yaşanan kritik dönəmdə atəşkəsi pozmasının əsas səbəbi Azərbaycanı iğtişaşa cəlb etmək istəyilə bağlıdır. Yəni çalışır ki, Azərbaycan ona cavab versin və bununla da ölkəmizin məhz Ermənistanla sərhəddə mütəmadi olaraq atəşkəsi pozduğunu dünya ictimaiyyətinə təqdim etsin. Eyni zamanda, bunu Ermənistanın daxilindəki səbəblərlə də izah etmək olar. Nikol Paşinyana qarşı narazı qüvvələr var. Belə qüvvələr siyasi ilə yanaşı, hərbi arenada da mövcuddur. Azərbaycan atəşkəsin pozulmasında qətiyyən maraqlı deyil. Ancaq bu o demək deyil ki, bütün təxribatlar cavabsız qala bilər. Ermənistanın belə davranışları mütləq layiqli cavabını alacaq. Ermənistan bilir ki, dünyanın gözü bu regiondadır. Buna görə də bölgədəki təhlükəsizliyin, daha doğrusu, status-kvonun dəyişməz qalmasına bu cür təxribatlarla təminat almağa çalışır".




***Məhəmmədəli QƏRİBLİ***

# İran-ABŞ raket müharibəsində Azərbaycanın ziyan görmə ehtimalı - Təsadüfi raketlərin zərərsizləşdirilməsi gücü...

***Azad İsazadə:** "Təxmin edə bilərik ki, ABŞ-ın əsas hədəfində İranın nüvə obyektləri, neft sənayesi və raket bazaları olacaq"*

**ABŞ-ın Müdafiə Nazirliyinin məlumatına görə, İraqda ABŞ qoşunlarının yerləşdiyi iki aviabazaya çoxlu ballistik raket zərbələri endirilib. İranın dövlət televiziyası hücumun ölkənin ən yüksək hərbi komandiri Qasım Süleymaninin ABŞ Prezidenti Donald Trumpın göstərişi ilə Bağdadda pilotsuz təyyarə vasitəsilə vurularaq öldürülməsinə cavab olduğunu bildirib.**



Pentaqon İraqın İrbil və Əl-Əsəd bölgələrində iki yerə hücum edildiyini bildirib: "ABŞ-ın İraqdakı obyektlərinə hücum məlumatları barədə xəbərdarıq. Prezidentə məlumat verilib, vəziyyəti yaxından izləyir və milli təhlükəsizlik komandası ilə məsləhətləşir".

İran İnqilab Keşikçiləri hücumun cümə günü baş verən Süleymaninin ölümünə cavab olduğunu deyiblər: "Biz onun terrorçu ordusuna bazaları verən bütün ABŞ müttəfiqlərinə İrana qarşı hər hansı təcavüzkar hərəkətlərin başlanğıc nöqtəsi olan hər bir ərazinin hədəfə alınacağı ilə bağlı xəbərdarlıq edirik".

İranın Xarici İşlər naziri Cavad Zərif "Twitter" hesabında hücumun özünümüdafiə xarakteri daşıdığını və vəziyyətin müharibəyə çevrilməsini istəmədiyini yazıb.

Bir müddət sonra ABŞ Prezidenti Donald Tramp "hər şey yaxşıdır" yazıb, əlavə edib ki, hələlik itki ehtimalları qiymətləndirilməyib.

Faktiki olaraq, tərəflər arasında raket müharibəsinə start verilib. Güman edilir ki, ABŞ da İran ərazisindəki bəzi obyektlərə raket zərbələri endirə bilər. Bizə məsafəcə yaxın olan ölkəyə atıla biləcək raketlərin trayektoriyadan çıxıb ərazimizə düşmə ehtimalı nə dərəcədədir? Məlumdur ki, Azərbaycan heç bir hərbi blokda təmsil olunmur və bütün sərhədlərini müstəqil qoruyur. Belə olan təqdirdə, trayektoriyasını azmış və ərazimizə düşmə ehtimalı olan raketlərin zərərsizləşdirilməsi üçün Azərbaycanın hərbi hava hücumundan müdafiə sistemlərinin gücünü yetərli saymaq olarmı?

Hərbi-siyasi ekspert Azad İsazadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə ehtimalları inkar etmək olmaz: "Bizim yaxın qonşumuzda belə böyük hadisə yaşanırsa, təbii ki, bunun bütün aspektlərini təhlil etməliyik. ABŞ-la İran arasındakı gərginlik yeni deyil. Bir neçə ildir belə qarşıdırma yaşanır. Mediada belə məlumatlar da gedib ki, ABŞ-ın dəstəyilə bizim cənub sərhədlərini qorumaq üçün müasir radiolokasiya stansiyaları quraşdırılıb. Hesab edirəm ki, həmin stansiyalar cənub istiqamətindən gələn zərbələri fiksə etməyə qadirdir. Problem ondadır ki, ABŞ İran ərazisinə zərbə vuracağını bəyan edib. Bu xüsusda 52 obyektin adı çəkilib. Həmin 52 obyektdən hansısa bizim sərhədə daha yaxın ərazidə yerləşirsə, raketlərin trayektoriyasını azıb, bizim əraziyə də düşmə ehtimalı ola bilər. Təxmin edə bilərik ki, ABŞ-ın əsas hədəfində İranın nüvə obyektləri, neft sənayesi və raket bazaları olacaq.

*"Həmin obyektlərin də böyük əksəriyyəti Azərbaycan sərhədindən uzaqdadır"*

Həmin obyektlərin də böyük əksəriyyəti Azərbaycan sərhədindən uzaqdadır. Burada bizim üçün ola biləcək daha mühüm bir təhlükə var. Bilirsiniz ki, İranda çoxlu sayda bizim soydaşımız yaşayır. İrana raket zərbələrinin endiriləcəyi təqdirdə həmin ölkənin daxilində böyük panika yaşanacaq. Bunun da nəticəsində çoxlu sayda qaçqın ordusu bizi əhatə edə bilər. Yəni İranda yaşayan soydaşlarımızın böyük əksəriyyəti bura pənah gətirməyə can atacaq. Bu amil ölkəmiz üçün daha ciddi problemə çevrilə bilər".

***Məhəmmədəli QƏRİBLİ***

**Cari ilin əvvəlindən etibarən Ermənistanda yenə ciddi narazılıq predmetinə çevrilən məqamlardan biri də ölkədə diktatura meyllərinin güclənməsidir. "Qraparak" qəzetinin məlumatına görə, bu hal özünü indi ən müxtəlif məqamlar üzrə göstərir.**

# Paşinyan siyasi narazı kənd icma rəhbərlərinə qarşı dünyada misilsiz repressiya üsulları tapıb...

Məsələn, qeyd olunur ki, Ermənistanda kənd icmalarına qarşı kampaniya yenidən geniş vüsət alır.

Qəzet yazır ki, əvvəllər Ermənistan rəhbərliyi "narazılar" qrupunun arzuolunmaz rəhbərlərinə qarşı icmalarda etiraz aksiyaları təşkil etməklə onların istefasına nail olurdusa, son zamanlar başqa metodlar işə salınıb: "Böyük şəhərlərin merləri ilə ərazi idarəetməsi və inkişaf naziri Suren Papikyan "danışıqlar aparır" - əvvəlcə "xoşluqla" anladır ki, onunla çalışmağı məqsədəuyğun hesab etmir və getməyi daha yaxşı olar.

Kiçik icmaların rəhbərləri ilə isə qubernatorlar "işləyir". Müqavimət göstərənlər kriminal olaylara cəlb olunur. Bir neçə gün bundan əvvəl Dilican meri Armen Santrosyana qarşı vəzifə səlahiyyətlərindən suiistifadə və 75 milyon dram dəyərində zərərvurma ittihamı ilə cinayət işi qaldırılıb. İcevanın keçmiş meri də analoji yolla vəzifəsindən kənarlaşdırılıb. Yayılan məlumatlara görə, bu mənada növbəti "qurban" Cermuk şəhərinin meri olacaq. Bunlar Paşinyan diktaturasının yeni idarəetmə qaydalarıdır. Belə vəziyyət ölkəni əsl xaosa sürükləyir".



Helsinki Vətəndaş Assambleyası Vanadzor ofisinin rəhbəri, hüquq müdafiəçisi Artur Sakunts da bu mövqeni bölüşür. Onun sözlərinə görə, mövcud konstitusiya Serj Sarkisyanın timsalında prezidentlikdən baş nazirə keçid zamanı dövlətin işğalının davam etməsini təmin etmək üçün qəbul edilib:"Şəxsiyyətin dəyişdirilməsi burada vacib deyil, kim olursa olsun, bu Konstitusiya "sabit siyasi çoxluq" anlayışına sahib olduğu üçün dövlətin işğalına xidmət edən bir Konstitusiyadır. Yəni məzmununda bu, təkpartiyalı bir siyasi sistemin Konstitusiyasıdır və məhz Dövlətin İşğal Konstitusiyası adlanır. Paşinyan bundan imtina etmir və ona qarşı çıxanları ən sərt formada məhv edir". Ermənistan parlamentinin sabiq vitsespikeri, Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov da vəziyyətin sürətlə pisləşdiyini vurğulayır:"Paşinyan diktaturası fonunda 2020-ci ildə Ermənistanın üzləşəcəyi əsas problemlər ölkənin təhlükəsizliyi, Qarabağ məsələsində hakimiyyətin perepektivsiz siyasəti, konsepsiyasının olmamasından ibarət olacaq".

Onun sözlərinə görə, son iki ildə cəmiyyətin qaralara və ağlara bölünməsi, inkarçı siyasət və nifrət təbliğatı bu çağırışların ayrılmaz hissəsi olub: "Sözün düzü, bu, neobolşevik hakimiyyətidir. Yəni bir tərəfdən Azərbaycan və Türkiyə qarşısında xarici problemlərimiz var, digər tərəfdən son 30 ildə hər gün müharibə ilə üzbəüz qalan bir çox xarici problemlərə sahib bir dövlət var. Birlik təbliği əvəzinə cəmiyyət parçalanıb və bütün bunlar çox narahatedicidir. Bundan çıxmağın iki yolu var, ya demokratiya, həm də milli dəyərlər, ya da zülm üstünlük təşkil etməlidir". O qeyd edib ki, onların bütün mübarizəsi Respublika Partiyasının hakimiyyətə qayıtması və parlamentdə yer alması üçün yox, Paşinyanın timsalında hakimiyyətin dayanması və ayıq olması üçün gedir:"Əvvəllər yalnız Respublikaçılar və Köçəryanın bir neçə tərəfdarı bu sözləri söyləyirdisə, bu gün bir zamanlar Paşinyanın yanında olanlar eyni fikirdədir. Məsələn, Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Artur Vanetsyan da ayılmağa və dayanmağa çağırış edib".

Şarmazanovun fikrincə, ölkəni diktatura vəziyyətinə gətirmək üçün 2020-ci ildə növbədənkənar parlament seçkiləri keçirilməlidir, çünki Ermənistan Respublikası müstəqillik qazandıqdan bəri ilk dəfə səslərin beşdə üçünün bir nəfərin cibində cəmləşdiyi bir parlament formalaşıb, həmin şəxs də nə istəyir onu da edir: "Respublika Partiyası, Çiçəklənən Ermənistan Partiyası, "İşıqlı Ermənistan" və ya Köçəryanların olmasından və ya kim olacağından asılı olmayaraq, bu vəziyyətdə müxalifətin dövlət naminə qərar qəbul edilməsinə hər hansı təsiri yoxdur. Bu gün Ermənistanda müxalifət hakimiyyətə qarşı çıxmır, dövlətimiz və siyasi sistemimiz raxit vəziyyətindədir. Bir insandan asılı olan bir hakimiyyət var və hakimiyyətin iştahını ölçmək və ya tarazlaşdırmaq üçün heç bir vasitəsi olmayan orta müxalifət var. Mən həmrəylik, dövlət düşüncəsindən uzaq olan məmurlar, dövlətçilik arzulayıram, vətənlərində daxili düşmən axtarmağın nankor bir məşğuliyyət olduğunu başa düşsünlər. Həmçinin arzu edirəm ki, 2020-ci ildə erməni xalqı populist hakimiyyətdən azad olunsun". Rus analitik Vitali Arkov isə bildirir: "Ermənistandakı vəziyyət indi gördüyümüz eyni ssenariyə uyğun olaraq inkişaf edərsə, Paşinyan və komandasının hakimiyyəti əllərində saxlaması getdikcə daha çətin olacaq. Artıq növbəti parlament seçkilərində acınacaqlı şəkildə uğursuzluğa düçar ola bilərlər.

**Əlbəttə, seçkilər ədalətli və şəffaf olarsa. Ancaq Paşinyan hökumətinin azadlıq və demokratiya ilə bağlı gəlişi gözəl sözləri deyil, həqiqi hərəkətləri ölkənin mövcud rəhbərliyinin demokratiya prinsiplərinə sadiqliyini getdikcə şübhə altına alır. Getdikcə aydın olur ki, Ermənistan klassik bir sxemlə inqilabdan diktaturaya doğru gedir".**

***Nahid SALAYEV***

"Mən o kəndlərdə olarkən görürəm ki, hələ də taxta dirəklər qalmaqdadır". Bunu Prezident İlham Əliyev Vüqar Əhmədovu "Azərişıq" ASC-nin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib.

*"Hər il Prezidentin ehtiyat fondundan müxtəlif rayonların sosial infrastrukturunun yaxşılaşdırılması ilə bağlı vəsaitlər ayrılır"*

# Dağ bölgələrinin icra başçılarının yarıtmaz işi üzə çıxdı - Prezident dağ kəndlərindəki işıq sisteminə sərt irad bildirdi...

*"Buna görə dağ rayonlarının icra başçılarının məsuliyyəti daha böyükdür"*

Ölkə başçısının fikrincə, gələcəkdə xüsusilə ucqar dağ kəndlərində enerji təsərrüfatına da böyük diqqət göstərilməlidir: "Çünki biz, demək olar ki, bütün şəhərlərdə artıq yeni yarımstansiyaların, transformatorların quraşdırılması nəticəsində problemi həll etmişik, ancaq bəzi kəndlərdə dirəklər köhnədən qalıb. Mən o kəndlərdə olarkən görürəm ki, hələ də taxta dirəklər qalmaqdadır. Onları müasir dirəklərə dəyişdirmək üçün əlavə tədbirlər görülməlidir. Paylayıcı xətlər indi tamamilə yenilənib. Ona görə enerji təminatını indiki səviyyədə saxlamaq üçün əlbəttə ki, biz daim fəal olmalıyıq və o cümlədən, "Azərişıq" daim bu işlərə diqqət yetirməlidir. Çünki bizim tələbatımız artır. Baxın, 2019-cu ildə qeyri-neft sənayemiz 14 faiz artıbdır. Deməli, əlavə enerji gücü lazımdır".

Prezidentin sözügedən məsələni qabartmasından sonra məlum oldu ki, dağ rayonlarındakı icra başçılarının və enerji təsərrüfatlarına rəhbərlik edən şəxslərin məsuliyyətsizliyi üzündən illərdir bu problem həll edilməyib. Bununla belə, sözügedən icra başçıları belə problemin olduğunu iclaslarda deməyiblər. Çox güman ki, ölkə başçısı bu məsələni qaldırmasaydı, dağ rayonlarının taxta elektrik dirəklərinin dəyişdirilməsi ilə bağlı təşəbbüs olmayacaqdı.

Onu da qeyd edək ki, taxta dirəklər üzərində çəkilən elektrik xətləri əsasən qış mövsümündə ciddi problemlərə səbəb olur. Xüsusən küləkli havalarda xətlərdə tez-tez açılmalar baş verir və nəticədə dağ kəndləri günlərlə, bəzən həftələrlə işıqsız qalır. Bütün bunları nəzərə alsaq, dağ rayonlarındakı sözügedən taxta elektrik dirəklərinin indiyədək qalmasında rayon icra başçıları və enerji təsərrüfatlarının rəhbərləri nə dərəcədə məsuliyyət daşıyırlar?

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynlinin sözlərinə görə, buna görə dağ rayonlarının icra başçılarının məsuliyyəti daha böyükdür: "Çünki icra başçılarının işinə məsuliyyətsiz yanaşması üzündən indiyədək sözügedən problem həll edilməyib. Ona görə həll edilməyib ki, onlar bunun həllində maraqlı olmayıblar. Nəticədə ucqar kəndlərdə yaşayan insanlar əziyyət çəkirlər. Bu səbəbdən cavanlar görürsən kənddə yaşamaq, işləmək istəmirlər. Əlbəttə ki, infrastruktur olmadan kəndlərdə normal yaşayışı təmin etmək çətindir. Bunun üçün də ən vacib faktorlardan biri dayanıqlı enerji təminatını qurmaqdır. Digər tərəfdən, hər il Prezidentin ehtiyat fondundan müxtəlif rayonların sosial infrastrukturunun yaxşılaşdırılması ilə bağlı vəsaitlər ayrılır.



O cümlədən, "Azərişıq" ASC-nin özünün də gəlirləri var. Bu vəsaitlər hara gedir? Deməyim odur ki, icra başçıları ilə yanaşı, "Azərişıq" ASC-nin də burada məsuliyyət yükü var. Ona görə də məsələyə kompleks yanaşılmalıdır. Ancaq məsələyə hansı tərəfdən yanaşsaq görərik ki, icra başçılarının məsuliyyət payı daha çoxdur. Ümid edirəm ki, "Azərişıq" ASC-nin yeni rəhbərliyi bu problemi həll etməyə çalışacaq".

***Vidadi ORDAHALLI***

---

**İsveçrənin "Henley&Partners" şirkətinin tərtib etdiyi dünyanın "ən güclü" pasportlarının reytinqində Azərbaycanın da adı var. Reytinqdə 199 ölkə iştirak edib. Məlumat üçün bildirək ki, şirkət "ən güclü" pasportları müəyyən etmək üçün Beynəlxalq Hava Nəqliyyat Birliyinin (IATA) məlumatlarından istifadə edib.**

*"Azərbaycan vətəndaşlarının hazırda istifadə etdikləri pasportlar dünya standartlarına tam uyğundur"*

# Azərbaycan pasportları dünya üzrə 76 güclülər sırasında - gücümüz nədədir...

***İlqar Hüseynli:** "Bal pasport sahibinin vizasız gedə bildiyi ərazilərin sayı əsasında hesablanır"*

Reytinq seçilmiş ölkə vətəndaşlarının neçə xarici dövləti vizasız və sadələşdirilmiş qaydada ziyarət edə biləcəyini ifadə edən hərəkət azadlığı indeksinə əsaslanır.

Siyahıya əsasən, Yaponiya və Sinqapur vətəndaşları dünyanın "ən güclü" pasportlarına sahibdirlər. İlk sıraya, həmçinin, Almaniya, Cənubi Koreya, Finlandiya, İtaliya, Lüksemburq, İspaniya və Danimarka daxildir.

Onu da bildirək ki, siyahıda Azərbaycan 76-cı yerdə qərarlaşıb. Azərbaycan vətəndaşları 67 ölkəyə vizasız səyahət edə bilərlər.

Maraqlıdır, Azərbaycan pasportlarının ən güclü əlamətləri nədir?

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bizimlə söhbətində qeyd etdi ki, Azərbaycan vətəndaşlarının hazırda istifadə etdikləri pasportlar dünya standartlarına tam uyğundur: "Ümumvətəndaşlıq pasportlarının görünüşündən başqa digər əhəmiyyətli məsələ onun "gücü" ilə bağlıdır ki, bu reytinq vətəndaşlarının vizasız gedə biləcəyi ölkələrin sayı ilə müəyyən edilir. Bu reytinqə görə, Azərbaycan pasportu dünyada "gücünə" görə 76-cı yeri tutur. Azərbaycan bu siyahıda qonşu ölkələri qabaqlayıb. Son illər Azərbaycanın xarici siyasətində həyata keçirdiyi addımlar növbəti illərdə bu reytinqdə daha da irəliləyəcəyimizi deməyə əsas verir. Ümid edək ki, vətəndaşlara verilən ümumvətəndaşlıq pasportları keyfiyyətində də dünya ölkələri reytinqində aparıcı mövqelərdə qərarlaşacaq".




**Həmsöhbətimiz onu da əlavə etdi ki, reytinqə görə, Azərbaycan pasportu ilə 67 ölkəyə vizasız səfər etmək olar: "Reytinqdə 199 ölkə iştirak edib. Bal pasport sahibinin vizasız gedə bildiyi ərazilərin sayı əsasında hesablanır".**

***Günel CƏLİLOVA***

# Azərbaycan Rusiya - İran ticarətində tranzit olaraq Türkmənistanı və Qazaxıstanı da üstələdi...

**Məlum həqiqətdir ki, bu gün Azərbaycan tərəfindən reallaşdırılan enerji ilə yanaşı, nəqliyyat layihələri də təkcə ölkəmiz yox, həm də Qərb, Asiyanın bir çox ölkələri üçün strateji əhəmiyyət kəsb edir. Məsələn, Bakı-Tiflis-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Avrasiya məkanında yük daşımalarında Azərbaycan mühüm rol oynamağa başlayıb.**

Eləcə də bu gün ölkəmiz "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üçün Cənubi Qafqaz regionunda əsas qovşaq rolunu oynamağa başlayıb. Bu isə artıq nəqliyyat-logistika xidmətinin geosiyasi və geoiqtisadi səviyyəyə çatdırılması kimi də qəbul olunur.

Digər tərəfdən, baş verənlər Azərbaycanın beynəlxalq miqyasda mövqelərini gücləndirir, onunla əməkdaşlığa can atanların sayını artırır. Özü də indi dünyanın ən güclü iqtisadiyyatına malik ölkələr belə bu prosesdə artıq xüsusi maraqlı tərəf kimi çıxış edir. Məsələn, Çin, Yaponiya, bir sıra Avropa ölkələri, Rusiya, İran və digərləri artıq Azərbaycanla qeyd edilən səpkidə əməkdaşlığa kifayət qədər böyük önəm verir. Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov məsələnin bu tərəfinə toxunaraq vurğulayır ki, Moskva və Bakı, kimin tərəfindən qoyulduğu mühüm olmayan sanksiyalara rəğmən, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi çərçivəsində əməkdaşlıq qurur. Onun sözlərinə görə, bütün "Şimal-Cənub"a üzv ölkələr və ya bu dəhlizdən istifadə etmək istəyən dövlətlərin bu layihə vasitəsilə reallaşdıracaqları öz milli maraqları var. Diplomat "Şimal-Cənub" dəhlizinin uğurlu fəaliyyətini və Azərbaycanın burada əsas rol oynadığını qeyd edib: "Hələ də bəzi çətinliklər var. Bütün bölmələr sona çatmayıb, amma təcrübə göstərdi ki, 2018-ci ildə dəhliz boyunca yük daşımaları səkkiz dəfə artıb və 2019-cu ilin göstəriciləri də yüksəkdir. Yeni bu dəhliz çox uğurla işləyir. Azərbaycanın onun fəaliyyətində əsas rol oynaması burada Qərbdən Şərqə yeni yolun kəsişməsinə səbəb ola bilər. Elə ümumilikdə də bu baş verir". Diplomatik nümayəndəliyin rəhbəri, eyni zamanda, məşhur "Bir kəmər - bir yol" marşrutu boyunca yüklərin Asiya dövlətlərinin əraziləri ilə daşındığını, Xəzərin şərq sahilinə çatdıqlarını, sonra dəniz yolu ilə Azərbaycanın Ələt limanına gəldiklərini və oradan da qərbə doğru davam etdiklərini bildirib. Belə vəziyyətdə o, yükdışmalardan Azərbaycanın kifayət qədər böyük miqdarda gəlir əldə edəcəyini vurğulayıb. Səfir bundan sonra da ölkəsinin, digər sahələrlə yanaşı, nəqliyyat sferasında da Azərbaycanla əməkdaşlığın davamında maraqlı tərəf kimi çıxış etdiyini vurğulayıb. Rus politoloq Aleksandr Karavayev isə bütün bunları təbii sayır. Onun sözlərinə görə, Rusiya ilə Azərbaycan arasında əlaqələr iqtisadi kontekstdə yol xəritələri şəklində formalaşıb. Moskvanın nöqteyi-nəzərindən bu yol xəritələri təkcə Azərbaycanla deyil, bir çox digər tərəfdaşlarla da qarşılıqlı fəaliyyət üçün modul tipli yol xəritələridir. O bildirib ki, Azərbaycanın çoxvektorlu siyasəti son illərdə fəal xarakterli siyasətə çevrilib: "Yəni Azərbaycan müxtəlif geosiyasi qüvvələrə Cənubi Qafqazda öz layihələrini təklif edir. Bu kontekstdə "Yeni İpək Yolu" layihəsinin rolunu xatırlamaq kifayətdir. Azərbaycan yol xəritələri mövzusunu fəal inkişaf etdirərək, bu xəritələri öz layihələri ilə zənginləşdirir ki, bu da bilavasitə çox əhəmiyyətli "Şimal-Cənub" dəhlizində əks olunur". A.Karavayev vurğulayıb ki, Moskva ilə Bakı arasında müzakirə edilən layihələr iki ölkənin bu beynəlxalq dəhlizlərə, xidmət, əmtəə və işçi qüvvəsi axınına cəlb olunması səviyyəsini yüksəldir. Ekspert bildirir ki, Rusiyanın əsas ticarət tərəfdaşlarından olan İran məhz Azərbaycan vasitəsilə onun ölkəsi ilə iqtisadi, ticarət əlaqələrini genişləndirir. Elə Rusiya özü də indi İranla əlaqələrində Azərbaycanın imkanlarından geniş faydalanır. Belə ki, Rusiyadan Qazaxıstan və Türkmənistan üzərindən, yəni Sərəxs keçid məntəqəsindən İrana qədər olan məsafə kifayət qədər uzaqdır. Rusiyanın dəniz limanlarından daşınan yüklər isə gəminin yükü tam yığılanadək saxlandığı zaman əlavə cərimələr yaranır. Bu yüklər Azərbaycan dəmir yolu üzərindən tranzit olaraq daşınanda isə həm məsafə qısalır, həm də əlavə cərimələrdən qaçmaq mümkün olur. Elə bu səbəbdən Rusiya İrana yükləri artıq daha çox Azərbaycan üzərindən göndərməyə başlayıb. Yaxın vaxtlarda Qazaxıstan və Rusiyadan minlərlə ton həcmində buğda, arpa, kətan, mərci kimi yüklərin Astara stansiyasına və oradan da İrana göndərilməsi planlaşdırılır. Gələcəkdə bu istiqamətdə yüklərin daha da artacağı gözlənir.




Bu vəziyyətdə İranın iqtisadi işlər və maliyyə nazirinin müavini Əli Mahmud Müsəvi bildirib ki, ölkəsi ilə Azərbaycan iqtisadi əlaqələrin daha da genişləndirilməsində qərarlıdır. Nazir müavini onu da bildirib ki, iki qonşu və dost dövlətin qərarı ilə bu əyalətdə sənaye şəhərciyi salınacaq. Azərbaycanlı iş adamları ilə yanaşı, yerli sahibkarlar da buraya sərmayə yatıra bilər. Onun sözlərinə görə, sənaye şəhərciyinin yeri təsadüfən seçilməyib: "Şimal-Cənub" dəhlizinə daxil olan dəmir yolu xətti bu ərazidən keçəcək ki, bu da istehsal olunacaq ixrac və idxal mallarının daşınmasını asanlaşdıracaq". O, İran-Azərbaycan əlaqələrinin gələcəkdə daha da inkişaf edəcəyini bildirib.

***Ramil QULİYEV***

# Çini gözləyən iqtisadi fəlakət Azərbaycana təsirsiz ötüşəcək...

**Dünyanın geosiyasi gündəmində baş verənlər qlobal iqtisadiyyata da ciddi təsir edərək burada yeni böhran təhlükəsi yaradıb. Artıq əksər ekspertlər yaxın tezlikdə belə bir böhranın baş verəcəyinin qaçılmaz olduğunu bildirir. Vurğulanır ki, qlobal maliyyə böhranından 10 ildən çox vaxt keçib və artıq yeni böhran yaxınlaşır.**




Dünya Bankının analitiklərinin fikrincə, növbəti böhran əvvəlkilərin hamısından ağır olacaq.

Geosiyasi səbəblərlə yanaşı, Dünya Bankı əsas problemi dünyada həm özəl, həm də dövlət sektorlarında sürətlə böyüyən borc yükündə görür. Dünya üzrə borc artıq 246 trilyon dollara çatıb. Qlobal ümumi daxili məhsulu (ÜDM) üçqat üstələyən bu mütləq rekord planetdəki bütün məhsul və xidmətlərin dəyərinə bərabərdir. Lakin Dünya Bankı vurğulayır ki, son 10 ildə yeni borcların əsas istehsalçısı Çin olub. 2010-cu ildən bəri Çinin ödənilməmiş öhdəliklərinin ÜDM-ə nisbəti, demək olar ki, dörddə üç, yəni 255 faizə qədər artıb və ümumi borclar 20 trilyon dolları ötüb. Beləliklə, Dünya Bankı mütəxəssislərinin fikrincə, yeni qlobal böhran məhz Çində yaranacaq. Bu böhran əvvəlkilərdən daha böyük və ağır olacaq. Qeyd olunur ki, Çinin korporativ borcu dünyada ən böyükdür. 2008-ci ildə maliyyə tənəzzülü baş verəndə Pekin kreditləşməni genişləndirib. 2016-cı ildə ÜDM-in təqribən 160 faizi korporativ borcun, 230 faizi isə ümumi borcun səviyyəsinə çatıb. Strateji "Made in China 2025" proqramının icrası çərçivəsində son illərdə Pekin ən yeni texnologiyalara çıxış əldə etmək üçün Qərb şirkətlərini kütləvi şəkildə almağa başlayıb. Bunun üçün isə çinli iş adamları fəal şəkildə borc götürürlər. Beynəlxalq Hesablaşmalar Bankının məlumatına görə, nəticədə, yalnız keçən il ərzində Çinin korporativ borcu 3,8 faiz bəndi artıb. Müqayisə üçün bildirək ki, dövlət borcu 0,8 faiz bəndi, ev təsərrüfatlarının borcu isə 0,9 faiz bəndi artıb.

Kölgə bankçılığı da Çin şirkətlərinə kredit almağa kömək edir, lakin bu sektor narahatlıq doğuran ölçülərə qədər böyüyüb. Bir çox müştərilər artıq kreditlərlə yüklənib və qaydalara uyğun olaraq onlar yeni kreditlər ala bilməzlər. Buna görə də Çin bankları pulu onlarla iş adamları arasında vasitəçi rolunu oynayan maliyyə brokerlərinə və sələmçilərə verir. Təxminən 2012-ci ildən bəri, məhz bu kölgə kreditorları kredit verilməsi və aktivlərin idarə edilməsi xidmətlərinin həcmi və tempi baxımından ənənəvi maliyyə qurumlarını stabil olaraq geridə qoyublar. Bu mexanizmlər sərmayədarlara yüksək gəlir təklif etməyə imkan verir, lakin eyni zamanda böyük risqlərlə müşayiət olunur. Kölgə bankçılığı sayəsində Çin şirkətlərinin borc yükü artmaqda davam edir. Hazırda Çində bu sektorun həcmi təxminən 7 trilyon dollara çatır. Beynəlxalq Valyuta Fondu isə artıq xəbərdarlıq edib: bu vəziyyət ölkə iqtisadiyyatını dağıda və Asiyada 1997-ci il tənəzzülünə oxşar yeni böhranı başlada bilər.

Dünya Bankının analitiklərinin fikrincə isə, belə vəziyyətdə tezliklə dünya yeni bir qlobal maliyyə böhranı ilə üzləşəcək. Vəziyyətin ən optimal həlli durumu indiki kimi qorumaqdır, lakin bunun üçün Amerika Birləşmiş Ştatları onlar tərəfindən başladılan ticarət müharibəsinə son qoymalıdır. Amma bu istiqamətdə də vəziyyət gərginləşir. Təbii ki, baş verənlər digər ölkələrə, o cümlədən Azərbaycana da təsirsiz ğtüşməyəcək. Məsələn, baş verənlər dünya enerji bazarında qiymətlərə təsirini göstərəcək. Dünya Bankının analitikləri də bildirir ki, 2020-ci ildə qlobal mühitdəki qeyri-müəyyənliklər şəraitində neftin dünya bazarında qiymətinin dinamikası Azərbaycanın xarici balansına təsir göstərən əsas amillərdən olacaq. Ümumiyyətlə, qlobal əmtəə bazarlarında qiymətlərin fərqli dinamikaya malik olacağı proqnozlaşdırılır. Beynəlxalq Valyuta Fondunun son proqnozlarına əsasən, 2020-ci ildə neftin qiyməti 57,9 dollar təşkil edəcək ki, bu da əvvəlki illə müqayisədə aşağıdır. Neft məhsullarına tələbdə azalma gözləntiləri onu deməyə imkan verir ki, orta və uzunmüddətli dövrdə neftin qiymətinin pik illərində müşahidə olunan səviyyəyə yüksəlməsi ehtimalı yüksək deyil. Bununla belə, bəzi neft ixracatçılarına qarşı sanksiyalar və "OPEC plus" tərəfindən hasilatın tənzimlənməsi siyasəti neft qiymətlərinə növbəti ildə də artırıcı təsir edəcək.

Dünya Bankının proqnozlarına görə, 2020-ci ildə qiymətlərin metal üzrə 5,6 faiz, kənd təsərrüfatı məhsulları üzrə isə 0,6 faiz artacağı gözlənilir. Ümumdünya Ticarət Təşkilatının proqnozuna görə, 2020-ci ildə qlobal ticarətin artım tempi 2,7 faiz təşkil edəcək ki, bu da daha öncəki proqnoz göstəricidən 0,3 faiz bəndi azdır. Baza ssenari üzrə proqnozlar Azərbaycanda xarici və daxili balans üzrə əldə edilmiş müsbət meyllərin qorunacağını göstərir. 2020-ci ildə qlobal mühitdəki qeyri-müəyyənliklər şəraitində neftin dünya bazarında qiymət dinamikası, ticarət tərəfdaşlarında gedən proseslər, idxaldan asılılığın azaldılması və ixrac potensialının artması Azərbaycanın xarici balansına təsir göstərən əsas amillər olacaq. Neftin müxtəlif qiymət ssenarisi üzrə aparılmış simulyasiyalar 2020-ci ildə onun dövlət büdcəsində nəzərdə tutulan qiymətinin reallaşması halında cari əməliyyatlar hesabının profisitli olacağını göstərir. Əvvəlki illərdə olduğu kimi, növbəti ildə də cari əməliyyatlar balansının profisiti əsasən xarici ticarət balansı hesabına formalaşacaq. Qeyri-neft ticarət balansı ilə yanaşı, xidmət və ilkin gəlirlər balansında da müsbət meyllərin qalacağı proqnozlaşdırılır. Elə bütün bunlar da yeni böhranın Azərbaycana təsirinin minimal həddə olacağını deməyə əsas verir.

***Namiq QULİYEV***

# Bank kartlarından əməkdaşların iştirakı olmadan pul oğurlamaq mümkündürmü - "Unibank"ın timsalında nə baş verir...

**Banklar informasiya və maliyyə təhlükəsizliyi sahəsində olan çoxsaylı çatışmazlıqları gizlətsələr də, internet üzərindən vətəndaşların bank kartlarındakı pulların oğurlanması hər şeyi deyir. Azərbaycan bankları informasiya və maliyyə təhlükəsizliyi sahəsində olan çoxsaylı çatışmazlıqlarını nə qədər gizlətsələr də, vətəndaşların internet üzərindən bank kartlarındakı pulların oğurlanması barədə şikayətləri bu problemin mövcudluğuna dəlalət edir.**

*"Vəsaitlərin bank müştərilərinin xəbəri olmadan hesablarından silinməsi..."*

Bu günlərdə "Unibank" Açıq Səhmdar Cəmiyyətinin debet kartlarının balansından pul silinməsi haqqında məlumat yayıldı. Bankın yaydığı açıqlamada yaranan problemin texniki yenilənmə ilə bağlı olduğu bildirilib. Bank bu problemin bayram günlərində aparılan profilaktik işlərlə əlaqədar olduğunu ?lan edib. Artıq problem həllini tapıb, kartların balansı bərpa olunub.

Qeyd edək ki, bu hadisə banklarla bağlı baş verən ilk belə hadisə deyil. Maraqlıdır, bu cür problemlərin yaranmasının səbəbi nə ilə bağlıdır? Banklar hesablardakı vəsaitlərin təhlükəsizliyini necə qoruyurlar?

Ekspertlər bildirirlər ki, bankın informasiya texnologiyaları sistemində, idarəetmə proqramında yanlışlığa yol verilərsə, bütün hesablardan müəyyən məbləğ silinə bilər. Onların fikrincə, vaxtaşırı bank müştərilərinin hesabından cüzi məbləğdə pul oğurlayırlar.

İnformasiya və kommunikasiya məsələləri üzrə ekspert Osman Gündüz bildirdi ki, belə bir olayın baş verməsi heç də xoşagələn hal deyil: "Bunun üçün gərək ki, bank öncədən sınaq həyata keçirərdi. Ehtimal ki, bu baş verənlər innovativ həllin işə salınması, yeniləmə işlərinin başlaması ilə əlaqədar olub. Lakin bu həll özünü doğrultmayıb, qüsurlar ortaya çıxıb. Bank sistemində yenilənmənin edilməsi doğrudur. Lakin gərək ki, bu iş də peşəkarcasına həyata keçirilsin. Bu-

**Osman Gündüz:** *"Digər banklar bu vəziyyətdən nəticə çıxarıb önləyici tədbirlər görməlidirlər"*



nun üçün sınaq mərhələsinə əlavə resurslar, vəsaitlər ayrılmalıdır. Aidiyyəti qurumlar da bu nüanslara diqqətli yanaşmalıdırlar. Vəsaitlərin bank müştərilərinin xəbəri olmadan hesablarından silinməsi çox ciddi problemdir".

Həmsöhbətimiz hesab edir ki, bu cür halın digər banklar tərəfindən yaşanmaması üçün müəyyən işlər görülməlidir. Banklar bu vəziyyətdən nəticə çıxarıb önləyici tədbirlər görməlidirlər: "Avropada bütün banklar özlərinin APİ xidmətlərini müştərilərə təqdim edirlər. Hansısa şirkət bankın təqdim etdiyi APİ-lərdən istifadə etməklə əlavə dəyər yaratmış olur. Bizdə isə bunlar yoxdur, bankların 99 faizi APİ-ləri bağlayıblar. Belə olanda isə bankların təhlükəsizliyi daha da yüksək olmalı idi".

***Günel CƏLİLOVA***

# Xaricdə işləyən alimlərimizin yenidən AMEA sisteminə qaytarılması ideyası gündəmdə...

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ölkənin baş elmi mərkəzi olsa da, təəssüf ki, son illər burada baş verənlər, yaşananlar bu qurumun fəaliyyətində ciddi nöqsanların olduğunu üzə çıxarıb. Söhbət yalnız yanlış idarəetmədən, korrupsiya, şişirdilmiş ştatlardan, "ölü canlar"dan getmir, həm də burada ciddi elmi tədqiqat işləri aparılmadığından, elmin sənayedə, iqtisadiyyatda, kənd təsərrüfatı və digər sahələrin inkişafında rol oynaya bilməməsindən gedir.**



Vaxtilə Elmlər Akademiyası burada çalışan alimlərin biliyi, elmi-tədqiqat işləri iqtisadiyyatın, sənayenin bütün sahələrində tətbiq edilirdi. Bir vaxtlar Azərbaycan elminə töhfələr verən, akademiyada xüsusi məktəblər yaradan böyük alimlərin əksəriyyəti vəfat edib, onların yetirmələri dünyanın müxtəlif ölkələrinə üz tutaraq ayrı-ayrı xarici ali məktəblərdə, elmi-tədqiqat mərkəzlərində çalışırlar. Keçən əsrin 90-cı illərinin ortalarına qədər Azərbaycan Milli Elmlər Akademiyasında çalışan bu insanlar artıq illərdir xarici ölkələrdə işləyirlər. Onlar Azərbaycan elmini yüksək səviyyəyə çatdırmaq iqtidarında olsalar da, hələlik bu alimlər öz potensiallarını xarici ölkələr üçün xərcləyirlər.

Bu gün Azərbaycan Milli Elmlər Akademiyasında başlanan islahatlar bu sistemdə böyük dəyişikliklər ediləcəyini de-

**Faiq Ələkbərli:** *"Xaricdə fəaliyyət göstərən alimlərin akademiyaya dəvət edilməsi, burada işləməsi AMEA-da olan təsadüfi adamların bu sahədən çıxıb getməsinə səbəb ola bilər"*

məyə əsas verir. Müasir AMEA dünyanın çağırışlarına cavab verməli olan bir quruma çevrilməlidir. Məlumatlara görə, xarici ali məktəblərdə dərs deyən, xarici elmi mərkəzlərdə çalışan Azərbaycan alimlərinin AMEA-ya cəlb edilməsi gözlənir. Yəni xaricdəki Azərbaycan alimlərinin bir qisminin akademiyaya dəvət edilməsi aktuallaşıb. Hətta bildirilənə görə, artıq bəzi alimlərlə danışıqlar da aparılır.

AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli bizimlə söhbətində qeyd etdi ki, xaricdə fəaliyyət göstərən alimlərinin yenidən AMEA-ya cəlb edilməsi çox müsbət bir hal olardı. Bununla belə, F.Ələkbərlinin sözlərinə görə, xaricdə yüksək maaşa işləyən və bunun müqabilində də böyük elmi nəticələr göstərən alimləri AMEA-ya cəlb etmək üçün onlara yüksək maaş verilməlidir. "Ümumiyyətlə, AMEA-da baş verən yeniliklər doğrudan da elmin inkişafı, görülən işlərin keyfiyyətinin artırılması ilə bağlıdırsa, şübhəsiz ki, bunu müsbət dəyərləndirmək lazımdır. O cümlədən də vaxtilə Azərbaycandan xaricə "beyin axını"nın Azərbaycana cəlb edilməsi, əlbəttə, elmimizdə yeni bir mərhələyə qədəm qoyulmasına dəlalət edə bilərdi. Bu gün həqiqətən də dünyanın müxtəlif ölkələrində çox böyük azərbaycanlı alimlər işləyir və onlar arasında vaxtilə akademiyada işləyənlər də var. Xaricdə fəaliyyət göstərən alimlərin akademiyaya dəvət edilməsi, burada işləməsi AMEA-da olan təsadüfi adamların bu sahədən çıxıb getməsinə səbəb ola bilər. Çünki vaxtilə onların akademiyadan getməsi nəticəsində onların yerini təsadüfi adamlar tutub. Təsadüfi adamlar AMEA-da son illər kütləvi xarakter daşıyır. Elm və təhsil sahəsində təsadüfi adamlar çoxalıb. Xarici ali məktəblərdə, elmi-tədqiqat mərkəzlərində çalışan azərbaycanlı alimləri akademiyaya cəlb etmək müsbət nəticə verə bilər, lakin gərək həmin şəxslərin əməkhaqqı az olmasın. Çünki onlar xaricdə çox yüksək maaşla işləyirlər. Bilirsiniz ki, AMEA əməkdaşlarının maaşları çox aşağıdır və onlar da buna görə akademiya ilə yanaşı, başqa yerlərdə də işləyir, dərs deyirlər, bu da onların gördüyü işlərin keyfiyyətinə mənfi təsir göstərir. Amma maaş yüksək olsa, bizim alimlər başqa yerlərdə işləməzlər. Odur ki, xaricdən dəvət edilən alimlər bu maaşa işləməzlər. Çünki onlar vaxtilə əməkhaqqının azlığına görə xaricə getmişdilər".

F.Ələkbərli, həmçinin, hesab edir ki, AMEA əməkdaşlarının attestasiyasının keçirilməsi və burada yalnız elmə aidiyyəti olan işçilərin saxlanılması çox zəruridir.

***İradə SARIYEVA***

**Bu il yanvarın 1-dən Azərbaycanda "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması" Qaydası qüvvəyə minib. Kənd təsərrüfatı sahəsinə dəstək tədbirləri ilə bağlı yeni mexanizm bu sahədə hesabatlılığın, şəffaflığın artmasına, büdcə vəsaitlərinin səmərəli istifadəsinin təmin edilməsinə, fermerlər üçün müraciətlərin sadələşdirilməsinə, elektronlaşdırılaraq asanlaşdırılması və əlçatan olmasına xidmət edir.**

# Azərbaycanda 450 min fermer? - Az qala hər məntəqəyə 100 fermer düşür... Şübhələrin qaynaqları...

***Qadir Bayramlı:** "Kiçik və torpaqlarının 20 faizi işğal altında olan bir ölkədə bu qədər fermerin olması mümkün deyil"*



O da məlum olub ki, elektron hökumət portalı www.mygov.az içərisində www.eagro.az portalı formalaşdırılıb və portalda 449 259 fermer qeydiyyatdan keçib. Əkinçiliklə məşğul olan fermerlərin torpaq sənədləri və payızlıq əkinləri barədə məlumat Kənd Təsərrüfatı Nazirliyinin intensiv təlimlər keçmiş əməkdaşlarının dəstəyilə sistemə daxil edilib. Hazırda bu məlumatların monitorinqi aparılır. Monitorinqlər yekunlaşdıqdan sonra mərhələli olaraq subsidiyalar fermerlərin kartlarına köçürüləcək.

Belə məlum olur ki, Azərbaycanda 450 minədək fermer var. Hansı ki, ölkədə bu qədər fermerin olması rel görünmür. Məsələ ondadır ki, Azərbaycanda 65 rayon, 69 şəhər, 13 şəhər rayonu, 130 şəhər tipli qəsəbə və 4354 kənd yaşayış məntəqəsi var. Kəndlər 65 inzibati rayonun tərkibindədir. Hər rayonda da kəndlərin sayı müxtəlifdir. Elə rayon var ki, orada kəndlərin sayı 160-dan coxdur. Elə rayon da var ki, 30 kənddən ibarətdir. Bütün hallarda, orta hesabla götürəndə belə çıxır ki, hər kəndə 100 fermer düşür. Belə olsaydı, o zaman Azərbaycan bütün kənd təsərrüfatı mahsullarına olan tələbatını daxili istehsal hesabına ödəyərdi. Eyni zamanda, məhsulun digər hissəsini ixrac edərdi. O baxımdan, ölkədə 450 minədək fermerin olması nə dərəcədə real rəqəmdir?

*"Hesab edirəm ki, bütövlükdə, Azərbaycanın kənd təsərrüfatı statistikasına yenidən baxılmalıdır"*

Sözügedən məsələyə aydınlıq gətirən Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Qadir Bayramlı bildirdi ki, Azərbaycanda bu qədər fermer yoxdur: "O üzdən, sözügedən rəqəm reallığı əks etdirmir. Hesab edirəm ki, bütövlükdə, Azərbaycanın kənd təsərrüfatı statistikasına yenidən baxılmalıdır. Kiçik və torpaqlarının 20 faizi işğal altında olan bir ölkədə bu qədər fermerin olması mümkün deyil. Bu qədər fermer necə qeydiyyatdan keçib? Azərbaycanda kiçik təsərrüfatlar çoxdur. Həmin təsərrüfatların torpaq sahələri, orada olan heyvanların sayı azdır. Bunun ən böyük fəsadı ondan ibarətdir ki, belə təsərrüfat sahələrində yeni texnologiyaların tətbiqi çətinləşir. Bəzən, ümumiyyətlə, mümkünsüz hala gəlir. Başqa bir tərəfdən, bir ildən sonra sözügedən fermerlərin hesabatları yayılanda bu rəqəmin gerçək olmadığı ortaya çıxacaq. Ona görə də ölkədə 450 minə yaxın fermerin olması inandırıcı görünmür. Kənd təsərrüfatı sahəsinin elektronlaşdırılması müsbət haldır, amma bunun nə dərəcədə şəffaf olduğuna baxmaq lazımdır. Hesab edirəm ki, statistikaların dəqiqləşdirilməsi, həm də müəssisələrin işinin səmərəli qurulması baxımından elektronlaşdırma vacib məsələdir. Çünki dünyanın bir çox ölkəsində rəqəmsal kənd təsərrüfatına keçid başlayıb".

***Vidadi ORDAHALLI***

---

**Mağazaların, ofis və idarələrin qarşısında, şəxsi evlərin yerləşdiyi küçələrdə avtomobil saxlamaq olmur. Ya kimsə qarşına keçib "bura mənimdir" deyir, ya da xüsusi hazırlanmış "qadağandır!" nişanı ilə qarşılaşırsan. Demək olar ki, bu problemlə bütün sürücülər üzləşirlər.**

***Mais Ağayev:** "Şəxsi obyektlər tərəfindən dayanacaq yerlərinin "özəlləşdirilməsi" qanunsuzdur"*

***Vaqif Əsədov:** "...bu sürücüyə heç bir inzibati cərimə tətbiq edilməyəcək"*

***Asif Abdullayev:** "Ofis, təşkilat, mağaza qarşısı olan küçələr dövlətə aiddir və orada xüsusi nişan qoyulmayıbsa, heç kimin "burada saxlama, mənimdir" deməyə haqqı yoxdur"*

# Bakının "əbədi" və əzəli problemlərindən biri - yolkənarı obyekt sahiblərinin "yolları zəbt etməsi"...




Hüququnu bilən sürücü heç kimi dinləmədən avtomobilini saxlayır, bilməyən isə…

Parklamanı qadağan edən işarələr altında nəqliyyat vasitəsini saxlamaq birmənalı şəkildə olmaz və heç kim bununla mübahisə etmir. Bəs "parkovka" yeri qanuni olduğu halda, bu ərazinin yaxınlığında yerləşən obyektin sahibi onu "özəlləşdiribsə", nə etmək lazımdır?

Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev bildirdi ki, şəxsi obyektlər tərəfindən dayanacaq yerlərinin "özəlləşdirilməsi" qanunsuzdur: "Əgər bu ərazi parklanma üçün nəzərdə tutulubsa, o zaman şəxsi obyektin hansısa nümayəndəsinin avtomobilinizi orada saxlamağınıza qadağa qoymaq hüququ yoxdur. Yəni heç kimdən icazə istəmədən avtomobilinizi rahat şəkildə park edə bilərsiniz".

M.Ağayev onu da əlavə etdi ki, şəxsi obyektin nümayəndəsinin avtomobil sahibinin yoxluğunda evakuator çağırıb avtomobili cərimə meydançasına göndərməsi düzgün deyil: "Evakuator yalnız qanunsuz yerdə saxlama olduğu halda maşını cərimə meydançasına apara bilər. Ancaq bu ərazidə parklanmaya icazə verilirsə və bu yalnız obyekt sahibinin şıltaqlığıdırsa, heç kim avtomobilinizə toxunmayacaq".

Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi Vaqif Əsədov qeyd etdi ki, sürücü avtomobilini parklanmaya icazə verilən ərazidə düzgün park edibsə, kim şəkil çəkib, evakuator çağırmasından asılı olmayaraq, bu sürücüyə heç bir inzibati cərimə tətbiq edilməyəcək: "Təəssüf ki, obyekt nümayəndələrinin bu cür davranışı şəxsi maraqları ilə əlaqədardır, lakin icazə verilən ərazidə düzgün park edilmiş avtomobil sürücülərinin çəkinəcəyi bir şey yoxdur".

Hüquqşünas Asif Abdullayevin sözlərinə görə, idarə, ofis, təşkilat, mağaza qarşısı olan küçələr dövlətə aiddir və orada xüsusi nişan qoyulmayıbsa, heç kimin "burada saxlama, mənimdir" deməyə haqqı yoxdur: **"Düzdür, bəzən idarə və təşkilatların qarşısına qanunsuz oaraq xüsusi nişanlar qoyulur, amma bu nişanlar yola vurulmayıbsa, keçərli deyil. Yəni siz həmin yerdə avtomobil saxlaya bilərsiniz. Bu, mağazalara və digər obyektlərə də aiddir. Siz dayanma-durma qaydasını yalnız işarə olan yerlərdə avtomobilinizi saxladığınız zaman pozmuş olursunuz".**

***Günel CƏLİLOVA***

**Bakının Xəzər rayonunun Zirə qəsəbəsində yaşayan bir qrup sakin qəzetimizə şikayət edib. Şikayətçilər adından qəzetimizə danışan Qarabağ qazisi Ədalət Kalbalıyev sakinlərin üzləşdiyi problemləri sadaladı.**



# Zirə camaatını toyuq zılının iyində boğanlar - sakinlər nədən şikayət edir...

***Ədalət Kalbalıyev:** "Ferma fəaliyyətə başlayandan sonra ətrafa buraxdığı üfunət iyindən yaşamaq mümkün deyil"*

O bildirdi ki, yaşadıqları əraziyə yaxın yerdə iki ay əvvəl məskən salmış "Zirə toyuqları" brendi altında bazara mal təqdim edən müəssisə sakinləri yaşadıqları yerdən köçməyə vadar edir: "Xəzər rayoni Zirə qəsəbəsinin Pirallahı yolunun yaxınlığında yerləşən torpaq sahəsində yaşayış evi tikmişəm. İki ay bundan əvvəl ərazidə toyuq ferması fəaliyyətə başladı. Ferma fəaliyyətə başlayandan sonra ətrafa buraxdığı üfunət iyindən yaşamaq mümkün deyil. İydən camaat pəncərəni aça bilmir, çölə çıxmaq mümkünsüz olub. Yaranmış problemlə əlaqədar fermanı işlədənlərlə danışdıq. Sonra dedilər ki, buranın sahibi Anar müəllimdir, o gələr məsələyə aydınlıq gətirər, amma Anar müəllim gəlmədi. Sakinlər çox ciddi narahatlıq içindədirlər. Ona görə ki, əlaqədar qurumlara müraciət edilsə də, nəticə yoxdur. Ərizə ilə müvafiq orqanlara - Xəzər Rayon İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət etmişik ki, burada yaşamaq mümkün deyil. Bir daha qeyd edim ki, ərazidə çox pis üfunət iyi var. Uşaq çölə çıxıb nəfəs ala bilmir. İydən uşaqların ürəyi bulanır".

Ə.Kalbalıyevin açıqlamasından o da məlum oldu ki, sözügedən ərazidə 15 yaşayış evi üfunət iyinin təsiri altındadır: "Toyuq ferması həm də "Zirə Ekoparkı"na yaxın məsafədə yerləşir. Bütün bunlara baxmayaraq, Toyuq fermasını işlədənlər deyirlər ki, oranı 3 illik arendaya götürüblər. 100 min toyuq bəsləməlidirlər. Fermanı işlədənlər deyirlər ki, 100 min toyuq kəsimə getməyənə qədər işlərini dayandırmayacaqlar. Dedilər ki, bayramdan sonra rəhbərlik sakinlərlə görüşəcək, amma bu baş vermədi. Əksinə, fermanın fəaliyyətini bir az da gücləndiriblər. Hazırda həmin yerdə 100 minə yaxın toyuq saxlanır. Ventilyasiya sistemi işləməsə, toyuqların hamısı ölər. Ventilyasiya da işləyəndə biz üfunət iyindən dayana bilmirik. Ona görə qəti tələbimiz ondan ibarətdir ki, ferma fəaliyyətini dayandırsın. Çünki ərazidə iydən yaşamaq mümkün deyil. Bu gedişlə ərazidəki uşaqların bronxlarında ciddi fəsadlar yaranacaq. O üzdən, ərazidən köçmüşəm. Çünki övladlarımın sağlamlığını təhlükə altına atmaq istəmirəm. Onu da qeyd edim ki, ərazinin sahibi "Xəzər Dəniz Gəmiçiliyi"nin sabiq sədr müavini Mübariz Mədətov olub. O, dünyasını dəyişəndən sonra hazırda işlərə oğlu nəzarət edir. İndi bu yeri Anar adlı Zirə kənd sakininə icarəyə veriblər. Onlar da burada toyuq ferması açıblar. Məlumat üçün bildirim ki, sözügedən yerin sahibi kimi adıçəkilən şəxslə bağlı bundan əvvəl də müxtəlif qalmaqallar yaşanıb. "Xəzər Dəniz Gəmiçiliyi"nin sədr müavini olmuş Mübariz Mədətovun oğlu Xalid Mədətov 4 il əvvəl sərxoş vəziyyətdə "Galendawagen" markalı avtomobillə qəza törətmiş, nəticədə tarzən Ağasəlim Abdullayevin həyat yoldaşı və nəvəsi ölüb.

*"Müəssisə həm də "Zirə Ekoparkı"na yaxın məsafədə yerləşir"*

Ona Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 12 il həbs cəzası verilib. O, cəzasının 3 ilini çəkdikdən sonra azadlığa buraxılıb. Bu hadisədən sonra M.Mədətov vəzifəsindən kənarlaşdırılıb. Ümid edirik ki, Xəzər Rayon İcra Hakimiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaranmış vəziyyətə müdaxilə edib, sakinləri üzləşdikləri problemdən xilas edəcəklər".

***Vidadi ORDAHALLI***

**"Ay gözəl, hara gedirsən?", "Gəl otur, aparım", "Niyə tək gedirsən?", "Söz deyirəm...". Hər gün axşam-səhər yol kənarı ilə işə-gücə tələsən, müxtəlif məqsədlər üçün gedən qadınlar, qızlar bu sözləri yanlarından maşınla keçən kişilərdən, oğlanlardan çox eşidirlər.**



# Azərbaycan sürücülərinin dünyada analoqsuz qeyri-etik davranışı - yoldan ötən qadınlara söz atmaq...

***Fatimə Hacıbəyli:** "Azərbaycanda maşın sürən xüsusən də orta və daha yaşlı kişilərin yol kənarı ilə gedən qadınlara maşın saxlaması, siqnal verməsi, gözlərinə işıq salması, tanışlıq təklif etməsi adi hala çevrilib"*

Bir çox halda yol kənarı ilə gedən qadınlara bəzi kişilər sataşmaq, onları yoldan çıxarmaq məqsədilə bu cür "podxod"lar edirlər. Onlar tərbiyəsizliyi tanışlıq metoduna çevirmək istəyirlər. Çox təəssüf ki, yol gedən qadınların bərabərində maşın saxlayıb onlara söz atanlar, maşını asta-atsa qadının bərabəri ilə sürənlər, habelə bununla ürəyi soyumayıb, maşından düşüb qadınların arxasınca düşən kişilər arasında yaşlı nəslin nümayəndələri də var. Necə deyərlər, babası yaşda kişilər cavan qızların yanından keçəndə siqnal verir, onların üzərinə işıq salır, yaxud maşındakı maqnitofona "xod" verib onlara öz tərbiyəsizliklərini nümayiş etdirirlər.

Azərbaycandan fərqli olaraq dünyanın heç bir yerində, kimliyindən asılı olmayaraq, yol qırağı ilə gedən qadına nə maşın saxlayır, nə siqnal verir, nə də onların üzünə işıq salırlar. Belə hal təəssüf ki, yalnız Azərbaycanda var.

Əlbəttə, əmin və sabit ölkədə yaşayan xanımların səhər, axşam saatlarında yol kənarı ilə tək getməsində təəccüblü heç nə yoxdur. Amma bəzi kişilər qadınların rahatlığını əməllibaşlı pozurlar. Ölkəmizin hər yerində az qala addımbaşı müşahidə etdiyimiz bu xoşagəlməz davranışla, qeyri-etik hərəkətlə bağlı müxtəlif ölkələr üzrə bir araşdırma apardıq. Bəyənmədiyimiz "geridə qalmış, vəhşi, inkişaf etməmiş" dövlət adlandırdığımız ölkələrdə, eləcə də xristian və müsəlman ölkələrində belə hadisələr baş vermir. Amerikada, Avropada, Çində, Əfqanıstanda, Hindistanda yol kənarı ilə gedən qadının yanında maşın saxlayıb ona sataşmır, qadına siqnal vermir, gözünə işıq salmır, heç musiqinin də səsini ərş-əlaya qaldırmırlar. Rusiyada belə hallar baş verir, amma onu edənlər yenə də azərbaycanlılardır.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəylinin sözlərinə görə, bu halın cəmiyyətdə yayılması qadınları, qızları çox narahat edir. "Kişisi tərbiyəli olan cəmiyyət daha çox inkişaf edir. Azərbaycan cəmiyyəti, Azərbaycan kişisi son dövrlər çox dəyişib. Doğrudur, tərbiyəli, əxlaqlı insanlar da çoxdur. Amma bəziləri tərbiyədən uzaqdırlar. Əvvəllər küçədə, metroda qadınlara, qızlara cavan oğlanlar söz atardılar, indi tərsinədir, yaşlı və orta yaşlı insanlar qadınlara söz atırlar. Nəinki axsam saatlarında, hətta səhər və günorta da yol getdiyin yerdə bir də görürsən ki, böyründə bir bahalı maşın saxladı və içində oturan yaşlı kişi sənə müxtəlif təkliflər etdi. Reaksiya verməyəndə isə bir çox halda qadınları təhqir edirlər. Yol kənarı ilə qadın öz işinin ardınca gedir, amma bəzi kişilər qadına sataşmağa fürsət axtarırlar. Belə tərbiyəsizlik olmaz. Biz qadına, anaya, bacıya, qızlara hörmət və dəyər verən bir dövlətin, xalqın təmsilçiləriyik. Qızlar şikayət edirlər ki, yol kənarı ilə getdiyimiz yerdə ağsaçlı, ağbığlı yaşlı kişi maşını saxlayıb "gəlin aparım sizi, hara gedirsiz", "sizin kimi ceyranı kim küçəyə tək buraxıb" və sair sözlər deyirlər. Bunu edənlər kasıb adamlar deyil, müəyyən imkanı olan şəxslərdir. Türkiyə, ABŞ, Avropada qadına bu şəkildə sataşan yoxdur. Qadın kim olur-olsun, necə geyinir-geyinsin, fərqi yoxdur. İranda isə belə şeylərə görə adamı edam edərlər. Azərbaycanda maşın sürən xüsusən də orta və daha yaşlı kişilərin yol kənarı ilə gedən qadınlara maşın saxlaması, siqnal verməsi, gözlərinə işıq salması, tanışlıq təklif etməsi adi hala çevrilib. Bu, mənəvi aşınmanın təzahürüdür. Hətta olub ki, bu hala görə qan tökülüb. Hamı kiminsə bacısıdır, anasıdır. Lap qadın yiyəsizdir, kimsəsizdir, gərək ona maşın saxlayasan, "gəl aparım" deyəsən? Bu, Azərbaycan kişisinə yaraşmayan xüsusiyyətdir" - deyə ekspert bildirdi.

*"...bir də görürsən ki, böyründə bir bahalı maşın saxladı..."*

O, həmçinin, vurğuladı ki, qadın və qızların son zamanlar avtomobil almasına səbəb kişilərin bu cür hərəkətlərindən yayınmaq istəkləridir. "Qadına, qıza siqnal vermək, onların gözünə işıq salmaq, bu yolla onları hürkütmək, incitmək çox mənfi bir haldır. Fikrimcə, yalnız oğurluq edənlərə, adam öldürənlərə deyil, belələrinə qarşı da bir cəza müəyyən edilməlidir ki, qadın, qız onların əlindən rahat nəfəs alsın".

***İradə SARIYEVA***

№ 2 (4133) ■ Qiymәti: **40 qәpik**

# BAKI XӘBӘR

**9** YANVAR 2020-ci il

www.baki-xeber.com



## Külli miqdarda uduş düşәn biletini yandırdı

**Türkiyәdә yaşayan 27 yaşlı şәxs davranışı ilә hәr kәsi tәәccüblәndirib.**

"Milli.Az" xәbәr verir ki, o, 20 min lirә uduş düşәn biletini yandırıb. Maddi cәhәtdәn çәtinliklәri olan türkiyәli bildirib ki, biletә düşәn uduş haramdır. Bu üzdәn o puldan imtina edib. 1 uşaq atası olan şәxs bildirib ki, әslindә, o bilet almaq niyyәtindә olmayıb. Lakin yeni il günü mağazadakı satıcı ondan israrla bilet almasını istәyib. Türkiyәli, satıcının sözünü yerә salmamaq üçün bileti alıb.

## Tәmiz su problemini hәll edәn yeni texnologiya...

**Elm adamları dünyadakı әn böyük problemlәrdәn biri olan tәmiz su problemini hәm sadә, hәm dә aşağı büdcә ilә hәll ediblәr.**

Günәş enerjisindәn istifadә edәrәk dәniz suyundakı duzu ayıran bu sistemin gәlәcәkdә milyonlarla insanın su problemini hәll etmәsi gözlәnilir. "Techland.az" bildirir ki, dünyada 844 milyon insan tәmiz sudan istifadә edә bilmir. Yәni, 844 milyon insan üçün tәmiz su әn böyük problemlәrdәn biridir. Bu problemi hәll etmәk üçün bir çox araşdırmaçı ucuz vә praktiki üsullar axtarır. Son vaxtlar edilәn araşdırmalar isә bu problemi hәll edә bilәcәk bir fikir irәli sürüblәr. Dәnizdәki duzu yox edәrәk tәmiz suya çevirәn bu üsul yalnız günәş enerjisindәn istifadә edir. İşığın alınması üçün karbon nanotubaları ilә örtülmüş super hidrofilik filtr sәnәdlәrindәn hazırlanan kiçik disklәrdәn istifadә edәn yeni üsul yalnız günәş enerjisindәn istifadә edir, ancaq dәniz suyundakı 100% duzu çıxara bilәr. Yeni metod әslindә çox sadәdir vә 'köhnә metoddur' deyә bilәcәyimiz bir şәkildә işlәyir. Su buxarını tutmaq üçün dәniz suyu buxarlanır. Bu şәkildә su buxarı duzdan ayrılarkәn suda olan bütün duz vә oxşar maddәlәr möhkәm qalır.

## Elan

Şәki rayonu, Çayqaraqoyunlu kәnd sakini Qurbanova Humay Cәfәr qızının vә ailә üzvlәrinin adına verilmiş JN: 213 saylı torpağa mülkiyyәt hüququna dair Dövlәt Aktı itdiyi üçün etibarsız sayılır.

Әhmәdova Rәvanә Adil qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Qayıbov Afәr Azәr oğluna Odlar Yurdu Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Paşayeva Xәyalә Vidadi qızına Azәrbaycan Dövlәt Pedaqoji Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

## İnnovativ "Mobil Ödәmә" xidmәti artıq Azәrbaycanda!

**Әlverişli xidmәt "Azercell Telekom" tәrәfindәn PAŞA Bank vә Nәqliyyat, Rabitә vә Yüksәk Texnologiyalar Nazirliyinin Mәlumat Hesablama Mәrkәzi ilә birgә әmәkdaşlıqda tәqdim edilib.**

Yeni ilin başlanğıcı lider mobil operator "Azercell Telekom"un yeni rәqәmsal xidmәtinin istifadәyә verilmәsi ilә әlamәtdar oldu. Bu da cәmiyyәtin rәqәmsallaşması vә maliyyә sahәsinin rәqәmsallığa ahәngdar keçidi istiqamәtindә әhәmiyyәtli bir dönüş oldu. Belә ki, 8 yanvar 2020-ci il tarixindәn etibarәn "Azercell"in PAŞA Bank vә Azәrbaycan Respublikası Nәqliyyat, Rabitә vә Yüksәk Texnologiyalar Nazirliyinin Mәlumat Hesablama Mәrkәzi ilә birgә hәyata keçirdiyi "Mobil Ödәmә" xidmәti bütün fakturasız xәtt (SimSim) abunәçilәri üçün mümkün olacaq.

Azәrbaycan Respublikası Prezidentinin ölkәdә "Rәqәmsal Ödәnişlәrin Genişlәndirilmәsi üzrә Dövlәt Proqramı" ilә bağlı sәrәncamına uyğun olaraq, hazırlanmış yeni xidmәt abunәçilәrә nağd puldan istifadә etmәdәn mobil telefon vasitәsilә ödәmә әmәliyyatlarını hәyata keçirmәk imkanı yaradacaq. İstәnilәn GSM smartfonunda rahat vә intuitiv istifadә fürsәti yaradan "Mobil Ödәmә" xidmәtindәn yararlanmaq mümkündür.

Xidmәtin ilk mәrhәlәsindә "Azercell"in fakturasız xәtt abunәçilәrinin su, elektrik enerjisi, istilik kimi kommunal xidmәtlәr, elәcә dә, E-İmza, AzDataCom, Catel vә Azeronline kimi rabitә xidmәtlәri üçün ödәniş etmәk imkanı olacaq.

Fakturasız xәtt (SimSim) abunәçilәri bu xidmәtdәn "Azercell"in "KABİNETİM" mobil әlavәsi vasitәsilә yararlana bilәrlәr. Bu xidmәti aktivlәşdirmәk üçün abunәçi "KABİNETİM" әlavәsindә qeydiyyatdan keçәrkәn müvafiq şәrtlәri qәbul etmәk üçün elektron müqavilә imzalamalıdır.

Әlavә etmәk lazımdır ki, xidmәtdәn nömrәnin balansında 3 AZN-dәn artıq mәblәğ olduğu halda istifadә etmәk mümkündür. Birdәfәlik maksimal ödәniş isә 50 AZN mәblәğindә müәyyәn edilib. Minimal ödәniş hәddi xidmәt tәchizatçısı tәrәfindәn müәyyәn edilir. Eyni zamanda, bir ay әrzindә ödәnişlәrin ümumi hәcmi 500 AZN-dәn artıq olmamalıdır.

Qeyd edәk ki, "Mobil Ödәmә" xidmәtinin hәyata keçirilmәsi üçün mobil operator vә bank arasında Nәqliyyat, Rabitә vә Yüksәk Texnologiyalar Nazirliyinin Mәlumat Hesablama Mәrkәzi tәrәfindәn tәşkil edilәn platforma yaxın gәlәcәkdә "Mobil Ödәmә" layihәsi çәrçivәsindә xidmәtlәrin sayını genişlәndirәrәk xidmәt spektrinin artırılması vә digәr servislәrdәn istifadә üçün şәrait yaradacaq.

"Mobil Ödәmә" xidmәtinin әhәmiyyәtindәn bәhs edәrkәn "Azercell Telekom"un prezidenti Vahid Mürsәliyev qeyd etdi: "Rәqәmsal hәllәri daha da әlçatan etmәyi hәdәflәyәrәk biz bütün abunәçilәrimizin gündәlik hәyat proseslәri vә biznes әmәliyyatlarını asanlaşdırmaq, onları daha rahat vә sürәtli etmәk mәqsәdilә innovativ mәhsul çeşidlәrini genişlәndiririk. "Mobil Ödәmә" xidmәti gәlәcәyin rәqәmsal cәmiyyәtinin qurulması istiqamәtindә atılan әn vacib addımlardan biridir."

"Rәqәmsal" bank konsepsiyasını inkişaf etdirәn PAŞA Bank son bir neçә ildә müştәrilәrin biznes tәlәbatlarını qarşılamaq üçün onlarla birgә hazırlanmış yeni onlayn mәhsul vә xidmәtlәri fәal şәkildә bazarda tәtbiq etmәyә başlayıb. Ölkәdә nağdsız ödәnişlәrin hәcminin artmasına әhәmiyyәtli töhfә verәcәk bu xidmәt, müştәrilәr arasında yüksәk tәlәbatlı maliyyә alәtinә çevrilәcәk. Aparıcı banklardan biri olan PAŞA Bank müştәrilәrin mobil maliyyә xidmәtlәrinә tәlәbatını tam şәkildә qarşılayaraq, Azәrbaycanda bu xidmәtlәrin inkişafına öz töhfәsini verәcәk " - deyә, PAŞA Bankın İdarә Heyәti sәdrinin müavini, baş kommersiya direktoru Cavid Quliyev bildirib.

"Mobil Ödәmә" xidmәti bank vә mobil şәbәkәlәrin birlәşmәsindәn istifadә edәrәk maliyyә xidmәtlәri tәklif edәn rәqәmsal yanaşmadır. Bu, istifadәçilәrә әnәnәvi prosedurlardan keçmәdәn bank әmәliyyatlarını asanlıqla hәyata keçirmәyә vә yaxın gәlәcәkdә nәqliyyat xidmәtlәri, satınalmalar, balansın artırılması vә digәr xidmәtlәr üçün ödәniş etmәyә imkan yaradacaq.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.





**Qoç** - Siz günün açıq-aşkar düşәrli olmadığı bәxtsizlәrdәnsiniz. Yalnız yüksәk zirәklik sayәsindә mәqsәdlәrinizdәn bәzilәrinә çata bilәrsiniz. Sonradan buna görә heyfisәnib-heyfislәnmәyәcәyinizi yaxşı-yaxşı düşünün.



**Buğa** - Sәhvlәrdәn yayınmağınız çәtin olacaq. Sizi aldatmağa sәy göstәrәnlәrin, sadәlövhlüyünüzdәn istifadә etmәk istәyәnlәrin sayı çoxdur. Hәtta, hәmişә sizin tәrәfinizdә olanlar bu gün birinci yerә şәxsi maraqlarını qoyacaqlar.



**Әkizlәr** - Köhnә dostlar, yaxın qohumlar, sizi sәmimi vә tәmәnnasız sevәn insanlardan yardım görәcәksiniz. Amma tәәssüf ki, bu gün qabalığınız, diqqәtsizliyiniz vә laqeydliyiniz nәticәsindә mәhz bu insanları küsdürә bilәrsiniz.



**Xәrçәng** - İtki ehtimalı böyükdür. Sizi istәmәyәnlәr bu gün xüsusilә güclüdürlәr vә onlara müqavimәt göstәrmәk olduqca çәtindir. Çәtin vәziyyәtdәsiniz vә bu vәziyyәtdәn düzgün çıxış yolu tampaq daha çәtindir.



**Şir** - İnsanlarla dil tapmaq sizin üstünlüyünüz ola bilәr. Bunun sayәsindә bir çox çәtin vәziyyәtlәrin öhdәsindәn gәlәcәksiniz. Lakin güzәştә çox hәvәslә gedirsiniz. Daha sәrt mövqe tutmaq lazımdır.



**Qız** - Sözünüzün üstündә durmağınız vә qәtiyyәtiniz rәqiblәriniz üzәrindә qәlәbәyә imkan verәcәk, qarşınızda cәlbedici perspektivlәr açılacaq. Daxil olan tәkliflәri dәrindәn öyrәnin - onlardan biri, tezliklә sizә karyera nәrdivanında bir neçә qalxmaq imkanı verәcәk.



**Tәrәzi** - Sizә dә asan olmayacaq. Gün qәtiyyәt, hәtta aqressivlik tәlәb edir. Sizsә sülh әhval-ruhiyyәsindәsiniz vә heç kimlә müharibә etmәk istәmirsiniz. Eyni zamanda, mövqeyinizin düzgünlüyünә әmin deyilsiniz.



**Әqrәb** - Pis gün deyil. O, әmәkdaşlığa hazır olan, vәzifәlәri vә onların icrasına görә düşәn mükafatı bölüşmәyi bacaranlar üçün daha mәhsuldar olacaq. Müttәfiqlik münasibәtlәri çox sürәtlә qurulur vә inkişaf edir.



**Oxatan** - Maliyyә mәsәlәlәrindә son dәrәcәdә ehtiyatlı olmaq lazımdır. İtki vә lüzumsuz xәrc ehtimalı yüksәkdir. Çoxsaylı qovğalar mümkündür. Onların hamısının sәbәbi eynidir - mәişәt vә pul zәmini.



**Oğlaq** - Deyәsәn, ulduzların sizinlә qәrәzi var. Gün uğursuz başlanğıc vә tәşәbbüslәr, xeyli güc sәrf etdiyiniz, amma nәticә vermәyәn işlәrlә yadda qala bilәr. Bir yerdә oturmaq istәmirsiniz, bekarlıqdan narahat olursunuz, amma әlinizi bir işә atanda bir şey alınmır.



**Dolça** - Bürcün gәnc nümayәndәlәri çәtin mәnәvi seçim şәraitinә düşә bilәr. Onlar çox vacib qәrar qәbul etmәli olacaqlar. Yadda saxlayın ki, sonrakı bir çox hadisәlәr sizin mәhz bugünkü hәrәkәtlәrinizdәn asılı olacaq.



**Balıqlar** - Hәftәnin әn çәtin günlәrindәn biridir. Gün cürbәcür çәtinliklәr, problemlәr, vәziyyәtin uğursuz inkişafı sarıdan "sәxavәtli"dir. Yüksәk әhval-ruhiyyәni qorumaq, hәtta, әn sәbrli vә sarsılmaz nikbinliyә malik insanlarda da alınmır.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Kosmonavt gizlinlәri açıqladı

**Kosmosa gedәn ilk Böyük Britaniyalı kosmonavt Helen Şarmen maraqlı iddia ilә çıxış edib.**



"Milli.Az" bildirir ki, o qәti şәkildә yadplanetlilәrin olduğunu irәli sürüb. 56 yaşlı qadın kosmonavt iddia edib ki, yadplanetlilәrin quruluşu insanlar kimi olmadığı üçün onlar görünmürlәr: "Yadplanetlilәr var. Bunun başqa açıqlaması yoxdur. Milyardlarla ulduzun arasında hәr cür yaşayış formaları var. Bәlkә, indi burdadılar. Lakin biz onları görmürük". Qeyd edәk ki, Şarmen kosmosa 1991-ci ildә sәyahәt edib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.